# Ermənistanda hərbçiləri daşıyan maşın özlərinin basdırdıqları minaya düşdü



**Ermənistan silahlı qüvvələrinin şəxsi heyətini və hərbi əmlakını daşıyan UAZ markalı avtomobil oktyabrın 14-ü günorta saatlarında özləri tərəfindən Cermuk istiqamətində əvvəlcədən quraşdırılmış tank əleyhinə minaya düşüb.**

APA bildirir ki, bu barədə "Novosti Azerbaijan" Telegram kanalı məlumat yayıb.

Kanalın məlumatına görə, erməni hərbi qulluqçuları arasında həlak olan və yaralananlar var.

Texnika isə yararsız vəziyyətə düşüb.

# Məktəblərdə dərslik problemi öz həllini tapıb



**Sentyabr ayının əvvəlində qısa dövr ərzində məktəblərdə dərsliklərin təminatı ilə bağlı problem yaranıb.**

Bu barədə Bakı Şəhəri üzrə Təhsil İdarəsinin müdiri Mehriban Vəliyeva dünən keçirilən "Uşaq müdafiəsi: dialoq mühiti və qurumlararası əməkdaşlıq" adlı konfrans zamanı jurnalistlərə açıqlamasında deyib. O qeyd edib ki, həmin məsələ öz həllini tapıb və dərslik çatışmazlığı ilə bağlı problem yoxdur.


❐ № 188 (5709), 2022-ci il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 15 oktyabr 2022-ci il (şənbə)




# Zəngilan Hava Limanına beynəlxalq status verildi

**Zəngilan Hava Limanına beynəlxalq status verilib. Bu barədə Baş nazir Əli Əsədov müvafiq sərəncam imzalayıb. Sərəncamda deyilir:**

Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin, Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin və "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinin razılaşdırılmış təkliflərini nəzərə alaraq:

- Zəngilan rayonunda tikintisi başa çatdırılmış beynəlxalq uçuşları yerinə yetirmək üçün müvafiq standartlara cavab verən Zəngilan Hava Limanına beynəlxalq status verilsin.

- Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Zəngilan Hava Limanına bu Sərəncamın 1-ci hissəsi ilə beynəlxalq status verilməsi barədə müvafiq beynəlxalq təşkilatlara məlumat göndərsin.

Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.



# Aİ ölkələri Ermənistan-Azərbaycan sərhədinə missiyanın göndərilməsini müzakirə edəcək

**Avropa İttifaqına (Aİ) üzv dövlətlərin Ermənistan-Azərbaycan sərhədinə təşkilatın mülki missiyasının göndərilməsi üzrə müzakirəsinin vaxtı açıqlanıb.**

APA xəbər verir ki, bu barədə Aİ-nin Xarici Fəaliyyət Xidməti Ofisinin mətbuat xidməti məlumat yayıb.

"Aİ-yə üzv dövlətlər oktyabrın 17-də Xarici Əlaqələr Şurasında Ali Nümayəndə Cozep Borrellin monitorinq missiyasının yerləşdirilməsi təklifini müzakirə edəcəklər. Bu missiyanın əsas məqsədləri sabitliyə və etimadın yaradılmasına, eləcə də ikitərəfli sərhəd boyunca təhlükəsizliyi yaxşılaşdırmaq üçün komissiyaların işinə dəstək olacaq", - məlumatda qeyd olunub.

# Ərdoğan: Paşinyanla görüşdüm, Zəngəzur dəhlizi ilə bağlı problem görmürəm



**Praqada dar çərçivədə görüşdük. Həmin görüşdə Paşinyan (Ermənistan Baş naziri), eyni zamanda İlham bəy (Prezident İlham Əliyev) və Macarıstan Baş naziri Orban (Viktor Orban) da var idi.**

APA "Hürriyət"ə istinadən xəbər verir ki, bu barədə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan jurnalistlərin Paşinyanla görüşdə Zəngəzur dəhlizinə üzrə müzakirə aparmalarına dair suala cavabında deyib.

"Ondan sonra bir də təbii ki, nümayəndə heyətləri ilə görüşdük və bu məsələni də müzakirə etdik. Amma Zəngəzur dəhlizinin fəaliyyəti ilə bağlı mən hər hansı bir problem görmürəm", - Ərdoğan vurğulayıb.

# Astanada sülh müqaviləsinin detalları müzakirə olunub

## Hədəf ilin sonuna qədər Cənubi Qafqazda dinclik yaratmaqdır, ancaq prosesə mane olan qüvvələr də var



**Azərbaycanın Xarici işlər naziri Ceyhun Bayramov, Rusiyanın xarici işlər naziri Sergey Lavrov, Ermənistanın Xarici işlər naziri Ararat Mirzoyan arasında Qazaxıstanın paytaxtı Astana şəhərində üçtərəfli görüş keçirilib.**

Görüşdə Bakı ilə İrəvan arasında münasibətlərin normallaşması məsələsi müzakirə olunub. Ceyhun Bayramov sonuncu dəfə bu formatda görüşün bu ilin may ayında Düşənbədə keçirildiyini xatırladaraq, görüşün Düşənbədən sonra inkişaflar üzrə müzakirə aparılması üçün yaxşı imkan olduğunu qeyd edib.

Sülh müqaviləsi ilə bağlı Cenevrədə 2 oktyabr tarixində ikitərəfli görüşün keçirildiyini və həmin görüşdə Azərbaycan tərəfindən sülh müqaviləsinin əsas elementlərinin Ermənistana təqdim olunduğunu, elementlər üzrə Ermənistan tərəfindən cavab gözlənildiyini bildirib.

(səh.4)

# Fransa işğalçının yanında yer alıb

## Makron Ermənistana "ayı xidməti" göstərir

**Fransa Prezidenti Emmanuel Makron son müsahibəsində anti-Azərbaycan və qatı ermənipərəst mövqeyi ilə Parisin mövqeyinin qərəzli olduğunu növbəti dəfə isbatladı.**

Həmçinin, Fransanın vasitəçiliyinə zərbə vurdu. Praqada Azərbaycan, Ermənistan, Avropa İttifaqı və Fransa liderləri arasında dördlü format əsasında görüş və müzakirələrin aparılması ideyası Makrona məxsus idi.

Əlbəttə, vasitəçi tərəfsiz olmalıdır.



(səh.3)



# Texniki işçilər Media Reyestrinə salınmayacaq

**Texniki heyət üzvlərinin Media Reyestrində qeydiyyatdan keçməsi nəzərdən tutulmayıb**

Bunu MEDİA-nın Kommunikasiya şöbəsinin müdiri Səidə Şəfiyeva MEDİA-nın rəsmi "facebook" səhifəsində canlı yayım zamanı deyib.

Onun sözlərinə görə, "Media haqqında" qanunda texniki heyət jurnalist anlayışı ilə əhatə olunmayıb. Ona görə də onlar Media Reyestrinə daxil ola bilməyəcək. Buna baxmayaraq, onların fəaliyyətində hər hansı məhdudiyyət olmayacaq.

"Fotomüxbirlər jurnalist anlayışı ilə əhatə olunduğu üçün onlar da reyestrdə qeydiyyatdan keçə bilərlər. Amma fotoqraflar jurnalist anlayışı ilə əhatə olunmadığı üçün reyestrə düşə bilməyəcəklər".

# Vəfat edən olmayıb

## Daha 58 nəfər COVID-19-a yoluxub




**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 58 yeni yoluxma faktı qeydə alınıb, 89 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış şəxslər arasında vəfat edən olmayıb.

Azərbaycanda indiyədək ümumilikdə 822 485 nəfər koronavirus infeksiyasına yoluxub. Onlardan 812 087 nəfər müalicə olunaraq sağalıb, 9 931 nəfər vəfat edib, aktiv xəstə sayı 467 nəfərdir.

*Ölkədə son sutka ərzində 1 897, hazırkı dövrədək isə 7 284 670 test aparılıb.*

# İranda "Bəsic" üzvləri öldürülüb



**İranın Laristan şəhərində 2 təhlükəsizlik qüvvəsi əməkdaşı öldürülüb.**

APA-nın Tehran bürosu xəbər verir ki, bu gün səhər saatlarında İranın Fars əyalətinin Laristan şəhərində 2 iğtişaşçı divarlara azadlıq şüarları yazarkən "Bəsic" Müqavimət Qüvvələri patrulları ilə aralarında qarşıdurma yaranıb.

Nəticədə iğtişaşçılar tapança ilə atəş açaraq iki təhlükəsizlik qüvvəsi əməkdaşını öldürüblər.

Hazırda təhlükəsizlik qüvvələri şəhərdə onları axtarır.



# "Vahid Əhmədova təklifinə görə təşəkkür edirəm"

Üzeyir Cəfərov: "Sülhməramlılar daxil hərbi xidmətdə həlak olan bütün hərbçilərə şəhid statusu verilməlidir"

(səh.5)



# Türkiyə dezinformasiyaya qarşı mübarizəyə başladı

Azərbaycan da feyk xəbər axınının qarşısını almaq üçün hərəkətə keçməlidir

(səh.6)



# Prezident Ermənistana xəbərdarlıq etdi

## "Erməni silahlı qüvvələri Azərbaycan ərazisindən çıxarılmayıb"

**Oktyabrın 14-də Astanada Müstəqil Dövlətlər Birliyi (MDB) Dövlət Başçıları Şurasının iclası keçirilib. Azərbaycan Prezidenti İlham Əliyev də iclasda iştirak edib. Dövlət başçısı geniş nitq söyləyib. Ölkə rəhbəri regionda yaranmış vəziyyətlə bağlı həmkarlarını məlumatlandırıb:**



"Biz hələ ki, səbir nümayiş etdiririk, lakin bunun da bir həddi var. 2020-ci ilin noyabr Bəyanatının bu iki vacib bəndi icra edilməsə, bizim adekvat tədbir görməkdən başqa seçimimiz qalmayacaq"

"Həmkarlarım yaxşı bilirlər ki, Azərbaycanın ərazilərinin erməni silahlı qüvvələri tərəfindən işğalı dövründə mən bu mövzunu MDB çərçivəsində heç vaxt müzakirəyə çıxarmırdım. Çünki münaqişənin nizamlanması mövzusu ilə ATƏT-in Minsk Qrupu məşğul olurdu, o, mandata sahib idi. Təəssüf ki, 28 il ərzində Minsk Qrupunun nəticəsi sıfıra bərabərdir. İndi göründüyü kimi, bu qurumun başlıca məqsədi münaqişənin nizamlanması yox, onun dondurulması idi. Danışıqların aparılması münaqişənin hələ uzun illər həll olunmaması üçün yalnız pərdə idi. Beləliklə, münaqişə həll olunub. Azərbaycan beynəlxalq hüquqa, BMT-nin Nizamnaməsinə, o cümlədən hər bir ölkənin özünümüdafiə hüququna malik olmasını nəzərdə tutan BMT Nizamnaməsinin 51-ci maddəsinə uyğun olaraq münaqişəni özü həll edib. Münaqişədən sonrakı vəziyyət müxtəlif cür inkişaf edir. Buna görə də həmkarlarımı son dövrlər ərzində baş verənlərlə bağlı məlumatlandırmaq istərdim. Sentyabrda - demək olar bir ay bundan əvvəl Azərbaycan-Ermənistan sərhədi ərazisində silahlı toqquşmalar baş verdi. Bu silahlı toqquşmaların səbəbləri bəllidir - Azərbaycana münasibətdə terror, ilk növbədə, mina terroru və snayper terroru davam edir. İkinci Qarabağ müharibəsi başa çatandan sonra Azərbaycanın 250-dən çox vətəndaşı əsasən işğal dövründə basdırılan minaların partlaması nəticəsində ya həlak olub, ya da ciddi xəsarət alıb. Eyni zamanda, bizim tərəfimizdən Ermənistan istehsalı olan piyada əleyhinə 1400 mina aşkarlanıb. Bu minalar 2021-ci ildə Laçın rayonu ilə sərhəd ərazidə basdırılıb. Həmçinin Azərbaycanın bir hərbi mövqeyindən digərinə aparan yollar minalanıb. Silahlı toqquşmalar davam edib, aktiv faza maksimum 8 saat çəkib. Bəzilərinin hesab etdiyi kimi, Azərbaycan Ermənistan ərazisini işğal etmək niyyətində olmayıb. Nə bir şəhər, nə də bir kənd işğal olunub. Rusiya tərəfinin vasitəçilik fəaliyyəti nəticəsində, - mən bunu xüsusi vurğulamaq istərdim, - məhz Rusiya tərəfi atəşkəs təklifi ilə çıxış edi, bəziləri bunu başqa ölkələrə aid edirlər ki, bu da tamamilə əsassızdır. Rusiya tərəfinin vasitəçilik fəaliyyəti nəticəsində silahlı toqquşmalar, artıq dediyim kimi, dayandırıldı".

Prezident xatırladıb ki, oktyabrın 6-da "Avropa siyasi birliyi"nin yeni platforması çərçivəsində Praqada Fransa Prezidenti, Avropa İttifaqı Şurasının Prezidenti, Ermənistanın baş naziri və Azərbaycan prezidentinin iştirakı ilə dördtərəfli görüş təşkil olundu. Görüşdə bir neçə saat davam edən danışıqlar nəticəsində Ermənistan-Azərbaycan sərhədi yaxınlığında Ermənistan ərazisinə Avropa İttifaqının 40 nəfərdən ibarət mülki missiyasının göndərilməsi barədə qərar qəbul edildi: "Sonradan bizə məlum oldu ki, onların sayı 50 nəfər olacaq. Onlar orada azı 2 ay olacaqlar. Bu missiyanın məqsədi, gördüyümüz kimi, tərəflərə sərhədlərin çəkilməsində, delimitasiya ilə bağlı məsələlərin müəyyənləşdirilməsində kömək göstərməkdir. Bu səbəbdən biz buna razılıq verdik. Bu missiyanı Azərbaycan tərəfinə göndərmək barədə də cəhdlər oldu, ancaq bizim tərəfimizdən bu cəhdlər qətiyyətlə rədd edildi. Buna görə də missiya Ermənistan ərazisində, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT) məsuliyyət zonasında yerləşəcək. Dünən Avropa nümayəndələrinin birinci qrupu bu missiyanın yerləşdirilməsini müəyyənləşdirmək üçün Ermənistana gedib".

Ölkə başçısı təəssüflə qeyd edib ki, Azərbaycan dördtərəfli görüşün, o cümlədən Fransa prezidentinin iştirakı ilə keçirilməsinə razılıq verməsinə baxmayaraq, Azərbaycan xoş məram göstərərək, Fransa prezidentinə bu görüşdə iştirak etməyə icazə verdi: "Fransanın Azərbaycan və Ermənistan arasında münasibətlərə heç bir aidiyyəti yoxdur. Bəli, ATƏT-in Minsk Qrupunun həmsədri kimi Fransanın vasitəçilik missiyası var idi, lakin Qarabağ münaqişəsi nizamlandığına görə Minsk Qrupunun xidmətinə heç bir ehtiyac yox idi. Özü də bu xidmətlər, artıq dediyim kimi, əgər belə demək mümkündürsə, faydadan daha çox ziyan gətirən xidmətlər idi. Minsk qrupu heç bir iş görməyib, ərazimizin bir santimetr torpağı belə azad edilməmişdi. Avropa İttifaqı Şurası Prezidentinin iştirakına gəlincə, bildiyiniz kimi, Brüsseldə artıq bir neçə üçtərəfli görüş keçirilib və prinsipcə, biz Ermənistan-Azərbaycan münasibətlərinin normallaşdırılması işində Avropa İttifaqının səylərini həmişə dəstəkləmişik. Lakin Azərbaycanın nümayiş etdirdiyi xoş mərama baxmayaraq, Praqadakı görüşdən demək olar bir həftə sonra Fransa prezidenti təhqiramiz, qəbuledilməz, yalan və təxribat xarakterli bəyanatlarla çıxış etdi. Bu bəyanatlar mətbuatda var, hər kəs onları görə bilər. Bu bəyanatlarda o, Azərbaycanın dəhşətli müharibə törətdiyini bildirib, bununla da faktları manipulyasiya edərək, Fransa və dünya ictimaiyyətini çaşdırmağa səy göstərib. Azərbaycan beynəlxalq səviyyədə tanınan öz ərazisində müharibə apardı. Qarabağ bütün dünya tərəfindən Azərbaycanın tərkib hissəsi kimi tanınıb. Biz özünümüdafiə hüququndan istifadə edərək, ərazi bütövlüyümüzü güc hesabına bərpa etdik. Daha sonra bəyan edildi ki, Fransa heç vaxt Ermənistanı atmayacaq. Ancaq, necə deyərlər, bu, ikitərəfli münasibətlər məsələsidir. Həmçinin Rusiya Federasiyasının ünvanına "Rusiya Azərbaycan oyununu oynadı" kimi qərəzli bəyanatlar səsləndirildi. Böyük ölkənin Prezidentinə küçə leksikonundan istifadə etməyin nə dərəcədə siyasi nəzakətə uyğun olmasını, qoy, Fransa ictimaiyyəti müəyyən etsin. Biz isə öz tərəfimizdən belə bəyanatları qəti surətdə pisləyirik, rədd edirik və bundan sonra Fransa hökumətinin belə münasibəti çərçivəsində Azərbaycan-Ermənistan münasibətlərinin normallaşdırılması işində Fransanın hər hansı rol oynamasının heç bir mümkünlüyünü görmürük".

Prezident diqqəti çatdırıb ki, Fransanın xarici işlər naziri Azərbaycanın əleyhinə yalan bəyanatlar verib, Fransa Senatı və aşağı palata İkinci Qarabağ müharibəsi dövründə qondarma "Dağlıq Qarabağ"ı tanıyan qətnamələr qəbul ediblər: "Baxmayaraq ki, hətta Ermənistan özü onu tanımayıb. Bizə məlumdur ki, noyabrın ortalarına Fransa Senatında Azərbaycan əleyhinə növbəti qətnamə hazırlanır. Beləliklə, təəssüf ki, Fransanın indiki rəhbərliyi əvvəlkilərdən fərqli olaraq, - mənim isə prezident Şirakla da, prezident Sarkozi ilə də, prezident Ollandla da kifayət qədər sıx ünsiyyət qurmaq imkanım var idi və münasibətlər kifayət qədər ölçülüb-biçilmiş, kifayət qədər mehriban idi və Fransada müəyyən erməni diasporu amilinə baxmayaraq, biz həmişə Fransanın əvvəlki prezidentlərinin fəaliyyətini, balanslaşdırılmış qəbul edirdik, - mahiyyət etibarilə bütün bunların üstündən xətt çəkdi. Buna görə də istərdim ki, həmkarlarımı bu vəziyyət barədə məlumatlandırım. Daha sonra Azərbaycanın Parisdəki səfirliyinə iki dəfə basqın edildi. Özü də birinci hücumdan sonra Fransa prezidenti telefonda mənə vəd verdi ki, bunun təkrarlanmaması məqsədilə tədbir görüləcək. Lakin bunun, yumşaq desək, doğru olmadığı ortaya çıxdı. Birinci vandalizm aktından və səfirliyin binasına soxulmaq cəhdindən sonra Azərbaycan səfirliyinin qarşısında qoyulmuş mühafizə götürüldü. Çox güman ki, bu, erməni tərəfi ilə razılaşdırılıb. Mühafizə götürülən kimi ikinci basqın cəhdi oldu, təhqiramiz yazılar oldu, Azərbaycan səfirliyinə hücum edən özündən çıxmış radikalların izdihamı oldu. Bu, qətiyyən yolverilməzdir və bütün diplomatik konvensiyaların pozulması deməkdir".

Dövlət başçısı Ermənistan tərəfindən Azərbaycanın Livandakı və ABŞ-dakı səfirliklərinə qarşı təxribatlar törətməsinə də diqqət çəkib: "Sonuncu təcavüz aktının, terrorun da - Azərbaycanın ABŞ-dakı səfirliyinin avtomobilinə odlu silahdan atəş açılmasının görüntüləri var. Biz ABŞ-ın, Fransanın və Azərbaycanın terrora məruz qala biləcək diplomatik missiyasının mövcud olduğu digər ölkələrin hökumətlərini məsuliyyətli olmağa və beynəlxalq öhdəliklərini yerinə yetirməyə çağırırıq. Bizdə heç bir şübhə yoxdur ki, terror və vandalizm aktları Ermənistan tərəfindən təşkil edilib. Mən nə üçün bunu deyirəm? Çünki 1990-cı illərdə erməni xüsusi xidmət orqanları tərəfindən 32 terror aktı - metroda, avtobuslarda, bərələrdə və qatarlarda partlayışlar törədilib. Bu terror aktları nəticəsində iki mindən çox dinc azərbaycanlı həlak olub".

Ölkə rəhbəri vurğulayıb ki, 2020-ci ilin noyabrında Rusiya Federasiyasının vasitəçiliyi ilə üçtərəfli Bəyanat qəbul edilib. Azərbaycan Bəyanatın bütün müddəalarını yerinə yetirir, o cümlədən Ermənistandan Qarabağa maneəsiz girişi təmin edir. Ermənistan Bəyanatın özünə aid hissəsini icra etmir: "Məhz Azərbaycanın əsas hissəsindən Naxçıvan Muxtar Respublikasına maneəsiz girişi təmin etmir, halbuki bu, onun hüquqi öhdəliyidir, həmçinin Azərbaycan ərazisində erməni silahlı qüvvələrini indiyədək çıxarmayıb. Biz hələ ki, səbir nümayiş etdiririk, lakin bunun da bir həddi var. 2020-ci ilin noyabr Bəyanatının bu iki vacib bəndi icra edilməsə, bizim adekvat tədbir görməkdən başqa seçimimiz qalmayacaq. Sonda Qarabağ ermənilərinin taleyi barədə. Praqa görüşündə bu məsələ üzrə bizim fikir mübadiləmiz oldu. Bizim mövqeyimiz aydındır, dəqiqdir. Qarabağ Azərbaycandır. Qarabağın erməni əhalisinin hüquqları və təhlükəsizliyi Azərbaycan Konstitusiyasına uyğun olaraq təmin ediləcək. Biz öz daxili məsələlərimizi heç bir tərəflə müzakirə etməyə hazırlaşmırıq. Praqa görüşünün yekunlarına əsasən də başa düşdüyüm qədər, bu mövzu dördtərəfli görüşün bütün iştirakçıları arasında hər hansı fərqli şəkildə qəbul edilməyib".

**İsmayıl**

# Media Reyestri fəaliyyətə başladı




**Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Media haqqında" Qanunun tətbiqi və bundan irəli gələn bir sıra məsələlərin tənzimlənməsi barədə" Fərmanına əsasən, Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi də daxil olmaqla, aidiyyəti qurumların üzərinə Media Reyestrinin yaradılması və onun fəaliyyətinin təmin olunması istiqamətində müvafiq tapşırıqlar qoyulub.**

Medianın İnkişafı Agentliyindən "Şərq"ə verilən xəbərə görə, Nazirlər Kabinetinin müvafiq qərarları ilə Media Reyestri şəhadətnaməsi və jurnalist vəsiqəsinin forması, həmçinin jurnalist vəsiqəsinin verilməsinə və dəyişdirilməsinə görə ödənişin məbləği və həmin vəsaitdən istifadə qaydası təsdiq edilib, bununla da Media Reyestrinin hüquqi təminatının yaradılması istiqamətində verilmiş tapşırıqların icrası yekunlaşıb.

Media Reyestri İnformasiya Sisteminin proqram təminatının formalaşdırılması prosesi də uğurla başa çatıb və 14 oktyabr 2022-ci il tarixindən etibarən Reyestr fəaliyyətə başlayıb.

Media subyektləri və jurnalistlər Media Reyestri İnformasiya Sisteminə reyestr.media.gov.az portalı üzərindən ASAN Login vasitəsilə daxil olaraq müraciətlərini formalaşdıra bilərlər.

Bununla yanaşı, Media Reyestrinin informativ veb-səhifəsinin "Tez-tez verilən suallar" bölməsində Reyestrə müraciətlə bağlı detallı məlumatları əks etdirən təlimatla da tanış olmaq mümkündür.

# Noyabr razılaşmasının təminatçısı Rusiyadır

## Putin və Əliyev Praqadakı danışıqları müzakirə ediblər

**Oktyabrın 13-də Astanada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiya Federasiyasının Prezidenti Vladimir Putinlə görüşü olub.**



Görüş zamanı V.Putin deyib ki, Rusiya Azərbaycanın aparıcı iqtisadi-ticari tərəfdaşlarından biri kimi qalmaqdadır və əmtəə dövriyyəsi artır: "Məncə, ötən il 14 faiz artıb, bu ilin ilk 7 ayı ərzində 7 faizdən çox artıb. Bizim iqtisadi operatorlar Azərbaycan iqtisadiyyatına 4,5 milyard dollar sərmayə yatırıblar. Hökumətlərarası Komissiyanın həmsədrləri müntəzəm görüşürlər. İşlər Sizin təklif etdiyiniz plan üzrə gedir. Düşünürəm ki, 2024-cü il də daxil olmaqla, Sizin tərəfinizdən təklif olunan bir sıra perspektivli, maraqlı layihələr üzrə gedir. Təbii ki, biz regionda vəziyyətin nizamlanması ilə bağlı məsələləri də həmişə diqqətdə saxlayırıq. Ümidvaram ki, bütün bu məsələlər üzrə bir daha danışmaq fürsətindən də istifadə edəcəyik və mövqelərimizi dəqiqləşdirəcəyik".

Prezident İlham Əliyev isə bildirib ki, Rusiya ilə münasibətlər ən yüksək səviyyəyə - müttəfiqlik qarşılıqlı fəaliyyət səviyyəsinə çatıb və biz bir çox məsələlər üzrə fəal surətdə irəliləyirik: "Siz qeyd etdiniz, təsdiqləmək istəyirəm ki, iqtisadi-ticari əlaqələr üzrə əmtəə dövriyyəsində artım var. İndi müəyyən etdiyimiz və bundan əvvəlki görüşlərdə razılaşdırdığımız layihələr bizə qarşılıqlı ticarəti daha da artırmaq imkanı verəcək. Həmçinin nəqliyyat, energetika sahələrində və humanitar sahədə əməkdaşlıqla bağlı məsələlər. Biz bütün istiqamətlər üzrə müsbət dinamika görürük. Lakin əlbəttə, hər bir görüşdə biz regionumuzda təhlükəsizliyə, sülhə nail olmaq məsələlərindən yan keçmirik. Biz bu gün bu barədə də danışacağıq. Biz uzunmüddətli sülhə hədəflənmişik. Hesab edirik ki, nəhayət, bu sülhə nail olmaqdan ötrü öz tərəfimizdən kifayət qədər konstruktiv tezislər təklif etmişik".

**Görüşün kodlarını "Şərq"ə açan sabiq XİN rəhbəri Tofiq Zülfüqarov qeyd edib ki, Azərbaycan münaqişələrə dair fikirlərini dəqiqləşdirib:** "Rusiyada bizim yüz minlərlə soydaşımız və vətəndaşımız yaşayır. Ona görə də rəsmi Moskva ilə müzakirə edilən mövzular həmişə çoxdur. Rusiyanın Ermənistan-Azərbaycan münaqişəsinin həllində isə öz mövqeyi ortadadır. Bu mərhələdə məsələnin həlli üçün partnyorlarımız olan müxtəlif ölkələr var və onlarla çox sıx təmas saxlanılır. Rusiya da bu ölkələr sırasındadır və o, 10 Noyabr razılaşmasının təminatçısıdır. Prezidentlərin görüşündə də bir çox suallara cavab tapılıb. Bildiyimiz kimi Ermənistan öz öhdəliklərindən boyun qaçırır. Ölkə başçılarının İrəvanın öhdəliklərini yerinə yetirməsi mövzusu ətrafında danışmaları istisna edilmir. Digər tərəfdən ortada rus sülhməramlıları və dünyada gedən ümumi proseslər var. Ən əsas məsələ isə Praqa görüşüdür. Putin və Əliyevin Praqadakı gedişləri də masaya yatırdıqlarına əminəm".

**Nihat Müzəffər**

# Makronun açıqlamaları tamam məntiqsizdir

## Fransa da münaqişənin həllinə kömək etməyib



**Fransa Prezidenti Emmanuel Makron Rusiya Federasiyasını "Qarabağ məsələsindən Cənubi Qafqazda sabitliyi pozmaq üçün istifadə etmək"də ittiham edib.**

**İttihamı cavablandıran Rusiya Prezidenti Vladimir Putin isə fransalı həmkarının Qarabağla bağlı açıqlamalarını "yanlış və qəbuledilməz" adlandırıb.**

MDB Dövlət Başçıları sammitində çıxışı zamanı Rusiya lideri bildirib ki, Fransa liderinin bəzi şərhlərini oxuyanda təəccüblənib:

"Hesab edirəm ki, onların münaqişənin gedişatından anlayışları yoxdur. Görünür, Makron tərəflərin mövqeyi barədə məlumatsızdır. Ona görə də onlar (Fransa prezidentinin bəyanatları - red.) yanlış səslənib, hətta deyərdim ki, təhrif olunub, ona görə də qəbuledilməzdir. Fürsət olsa, biz bunu Fransa prezidenti ilə müzakirə edəcəyik. Rusiya həmişə istənilən münaqişəni, o cümlədən Qarabağ və onun ətrafındakı məsələləri səmimi şəkildə həll etməyə çalışıb".

**İki tərəfin də haqsız olduğunu deyən siyasi şərhçi Elçin Xalidbəyli "Şərq"ə bildirib ki, bu ittihamla Minsk Qrupunda olan Fransa özünü də günahlandırır:** "Dağlıq Qarabağ münaqişəsini yaradan tərəf, həqiqətən də Rusiyadır və bu məsələdən öz maraqları üçün istifadə edib. Lakin Makronun açıqlamaları da məqsədyönlü xarakter daşıyır. Çünki o, bu açıqlamaları sülh istədiyi üçün yox, Cənubi Qafqaz uğrunda mübarizədə Kremllə rəqabətdə olduğu üçün verib. O bununla, Fransanın da Rusiya kimi pozucu qüvvə olduğunu etiraf etmiş olur. Əgər Moskva münaqişəni yaradıbsa, Paris də münaqişənin beynəlxalq hüquq çərçivəsindəki həllini 30 il ləngidib. Nəticədə də Azərbaycan Ordusu bu problemləri həll etməli olub. Yəni ki Makronun bugünkü açıqlamaları məntiqsizdir. Fransanın özü də münaqişənin həllinə kömək etməyib. Əksinə, hər zaman ermənipərəst mövqe tutaraq açıq şəkildə tərəfkeşlik edib. Putinin cavabı isə müqavimət xarakteri daşıyır. Ona görə ki, Qərb və Fransa Moskvanı regiondan sıxışdırmağa çalışır və onlar arasında mübarizə gedir. Bu nəhənglər arasındakı mübarizə isə Ermənistan üçün ağır nəticələnəcək. Çünki böyüklərin savaşında kiçiklər hər zaman əzilir".

**Nihat Müzəffər**



# Fransa işğalçının yanında yer alıb

## Makron Ermənistana “ayı xidməti” göstərir

**İsmayıl Qocayev**

**Fransa Prezidenti Emmanuel Makron son müsahibəsində anti-Azərbaycan və qatı ermənipərəst mövqeyi ilə Parisin mövqeyinin qərəzli olduğunu növbəti dəfə isbatladı. Həmçinin, Fransanın vasitəçiliyinə zərbə vurdu. Praqada Azərbaycan, Ermənistan, Avropa İttifaqı və Fransa liderləri arasında dördlü format əsasında görüş və müzakirələrin aparılması ideyası Makrona məxsus idi.**

Əlbəttə, vasitəçi tərəfsiz olmalıdır. Ancaq Makron dözmədi və növbəti dəfə bu adi prinsipi pozdu. Halbuki, ondan əvvəlki prezidentlər Jak Şirak, Nikola Sarkozi və Fransua Olland ermənilərə simpatiyalarına baxmayaraq, Azərbaycan əleyhinə açıqlamalardan çəkinirdilər. Makron müsahibəsində Qarabağı ”mübahisəli ərazi” adlandıraraq deyib ki, bu bölgə Ermənistanın ”mərkəzindədir”. Makron Ermənistanla Azərbaycanın xəritəsini səhv salıb. Diqqətlə baxsaydı, Qarabağın Azərbaycanın içərisində olduğunu və Ermənistanla sadəcə dəhlizlə birləşdiyini görərdi. İctimaiyyət nümayəndələrinin fikrincə, rəsmi Bakı Makronun prezidentliyi dövründə Fransanın vasitəçilik təşəbbüslərindən imtina etməlidir. Makron ermənipərəst mövqeyi ilə yalnız ölkəsinin vasitəçilik imkanlarına zərbə vurmur, eyni zamanda elə Ermənistana da ”ayı xidməti” göstərir. Çünki Makron müsahibəsində, guya, Rusiyanın Azərbaycanı dəstəklədiyini vurğulayaraq Parisin ermənilərin yanında yer aldığını bildirib. Rusiya Xarici İşlər Nazirliyi Makronu tənqid edən bəyanat yayıb. Bəyanat həm də İrəvana mesajdır ki, Makrona minnətdarlıq Kremlin qəzəbinə tuş gəlmək deməkdir. Makronun müsahibəsində ”Fransa Azərbaycandan qaz alımır” yalanı da Fransaya baha başa gələ bilər. Fransanın nəhəng ”Total” şirkəti Azərbaycanın ”Abşeron” yatağında əsas opreatorlardan biridir. Dövlət Neft Şirkəti ilə birgə 50 faiz paya malikdir. Makron belə davam edərsə, pay bölgüsünə yenidən baxmaq lazım gələcək. Azərbaycanla Ermənistan arasında 3 vasitəsçi - Rusiya, ABŞ və Avropa İttifaqı var. Fransa dördüncü vasitəçi kimi özünü sırımağa çalışır. Ona görə də Makronun ermənipərəst mövqeyini əlimizdə rəhbər tutaraq Parisin vasitəçi təşəbbüslərindən imtina etməliyik. Fransa Avropa İttifaqının üzvüdür, odur ki, Brüsselin vasitəçiliyi yetərlidir.

Azərbaycan Xarici İşlər Nazirliyi də Makrona cavab verib. Qeyd olunub ki, Fransa Prezidenti Emmanuel Makronun sözügedən müsahibəsində Azərbaycana qarşı yönələn, daha çox daxili auditoriyaya hesablanmış, tamamilə birtərəfli və açıq şəkildə Ermənistanı müdafiə edən fikirləri qəbuledilməzdir: ”Fransa dövlət başçısının Azərbaycana qarşı səsləndirdiyi əsassız ittihamları rədd edirik. E.Makron təəssüf ki, bugünədək Ermənistan tərəfindən üçtərəfli bəyanatın müddəalarının yerinə yetirilməməsi, Azərbaycan ərazilərində minalar basdırmaqla bölgədəki təhlükəsizliyə hədə törətməsi barədə susub. Buna rəğmən, rəsmi Bakı Fransa prezidentinin iki ölkə arasında münasibətlərin normallaşması prosesində vasitəçilik təşəbbüslərinə ”yox” deməyib. Bugünədək Makronun vasitəçiliyi ilə 4 fevral 2022 və 6 oktyabr 2022-ci il tarixlərində dördtərəfli görüşlər baş tutub. Ancaq Fransa prezidentinin Azərbaycana qarşı səsləndirdiyi fikirlər onun vasitəçilik səylərinin neytrallığını və qərəzsizliyini ciddi sual altına alır.

> “Onun ermənipərəst mövqeyini əsas gətirərək Parisin vasitəçi təşəbbüslərindən imtina etməliyik”

Azərbaycanın bölgədə sülh, sabitlik və inkişafı təmin etmək, beynəlxalq hüquq prinsiplərinə hörmət əsasında münasibətləri normallaşdırmaq cəhdləri qarşılığında Fransanın birtərəfli mövqeyi və əsassız ittihamları bu ölkənin vasitəçilik səylərinin bir daha nəzərdən keçirilməsini labüd edir”.

**Millət vəkili, siyasi elmlər doktoru, professor Elşad Mirbəşir deyib ki, Makron Azərbaycanın tarixi qələbəsinə qarşı ciddi təxribatlara cəhd edir. Onun sözlərinə görə, Fransanın təmsil olunduğu ATƏT-in Minsk Qrupu münaqişənin tənzimlənməsi üçün deyil, idarə olunması üçün yaradılmışdı. Deputat bildirib ki, bunu biz Minsk Qrupunun fəaliyyətində hər zaman müşahidə etmişik:** ”Minsk Qrupu fəaliyyətdə olduğu müddətdə münaqişəni bəlli maraqlar çərçivəsində idarə edib. Bu maraq əsasən Ermənistanın işğalçılıq siyasətinə leqallıq donu geydindirməkdən ibarət olub. Fransa Prezidenti Emmanuel Makron öz müsahibəsində bunu açıq etiraf etdi. Makron öz fikirləri il göstərdi ki, Azərbaycanın tarixi qələbəsinə qarşı ciddi təxribatlara cəhd edir. Bu təxribatların başqa xarakter alma ehtimallarını nəzərdən qaçırmaq olmaz. Digər tərəfdən, Makron aşkar büruzə verdi ki, Qərb Rusiya ilə münasibətlərini həm də Cənubi Qafqazda həll etmək niyyətindədir. Bu da bütövlükdə regional təhlükəsizliyə qarşı ciddi qəsd cəhdidir. Makronun bu mövqeyinə qarşı sərt ictimai qınağın da sərgilənməsi çox vacibdir”.

**Deputat Fəzail Ağamalı da bildirib ki, Prezident Makronun Azərbaycan dövlətinə qarşı sərsəm fikirlər söyləməsi birinci hal deyil:** ”O, heç bir halda Azərbaycan-Ermənistan münasibətlərinin normallaşması prosesində iştirak etməli deyil, çünki o, birmənalı şəkildə Ermənistanın yanındadır. Ermənistanın ”sülhpərvər və tolerant olduğunu” iddia edən Fransa prezidentinin fikirlərinə tutarlı arqumentlərlə etiraz edib. O deyib ki, Fransanın siyasətini neft-qaz siyasətinə dəyişməyəcəyini iddia edən Makron əslində özünün şərəf və ləyaqətini erməni pullarına satıb. Biz Fransa ilə münasibətlərimizə, diplomatik əlaqələrimizə yenidən baxmalıyıq və bununla bağlı XİN-in mövqeyini gözləyirik”.

**Parlament üzvü Musa Qasımlı da deyib ki, son günlər Fransa Prezidenti Emmanuel Makron siyasi etikaya, dövlətlərarası münasibətlər sisteminə sığmayan açıqlamalar verir. O qeyd edib ki, Makronun bu cür bəyanatlarla çıxış etməsinin bir səbəbi var:** ”Azərbaycan prezidenti müstəqil siyasət yürüdür və Azərbaycan dövlətinin maraqlarını müdafiə edir. Ona görə də belə çıxışlar çox olacaq və belə çıxışları bundan sonra da gözləməliyik. Amma bu çıxışların heç bir nəticəsi olmayacaq. Makron əgər bu açıqlamalarını davam etdirəcəksə, o zaman Fransa bütün Qafqazı itirəcək”.

# Ərdoğan Putinlə sonacan anlaşıb

## Türkiyə-Rusiya qaz qovşağı gerçək olur

**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Türkiyə-Rusiya qaz qovşağının yaradılması ilə bağlı göstəriş verdiyini açıqlayıb. Ərdoğan vurğulayıb ki, Türkiyə-Rusiya qaz qovşağının Trakya şəhərində yaradılması nəzərdə tutulur. Onun sözlərinə görə, Rusiya ilə qaz tranziti sahəsində əməkdaşlıq davam edir:**

”Türkiyə Rusiya ilə qaz qovşağının yaradılmasnda maraqlıdır. Bu qovşağın yaradılması üçün Enerji və Təbii Ehtiyatlar Nazirliyimizə tapşırıq vermişəm. Qovşaq Trakyada yaradılacaq. Addımlarımızı təhlükəsizlik tədbirlərinə uyğun olaraq atacağıq”. Xatırladaq ki, Rusiya Prezidenti Vladimir Putin də bildirib ki, Türkiyədə təbii qaz qovşağı yaradılarsa, bu ölkə həm də bu enerji resursunun qiymətinin müəyyən edilməsi platformasına çevrilə bilər. Putinin sözlərinə görə, Türkiyə təbii qaz tədarükü məsələsində ən etibarlı tərəfdaşdır. Onun sözlərinə görə, Rusiya qazı Türkiyəyə tam şəkildə ötürülür: ”Türkiyə Avropaya çatdırılma üçün bu gün ən etibarlı marşrut olduğunu sübut edib”.



> “Ucuz enerji, ucuz işçi qüvvəsi, ideal coğrafi-logistik mövqeyi Türkiyəni yaxın gələcəkdə fraqmental dünyanın yeni regional liderlərindən birinə çevirəcək”

**İqtisadçı Natiq Cəfərli deyib ki, Avropanın illik qaz istehlakı 510 mlrd. m3-dir. Keçən ilə qədər Rusiya bu həcmin 170-180 mlrd. m3-ni bir neçə boru xətti ilə təmin edirdi. İndi bu xətlərdən yalnız biri - Ukraynadan keçən xətt işlək vəziyyətdədir:** ”Müharibəyə baxmayaraq nə Rusiya, nə də Ukrayna o kəmərlərə dəymirlər, amma həcm olaraq qaz nəqli çox aşağı düşüb. Avropa üçün qazla əsas tədarük istiqaməti Türkiyə üzərinə keçir. Həm ”Türk axını”, həm də ”TANAP və TAP” layihələri, bundan başqa İrandan Türkiyəyə çəkilmiş, artıq işlək vəziyyətdə olan (İTE) boru xətti də var. Həcmi 30 mlrd. m3 qaldırmaq imkanı olan xəttdir. Ümumilikdə Türkiyə bütün boru xətlərinin tam həcmlə işləməsi zamanı Rusiya, Azərbaycan və İrandan 90-100 mlrd. m3 qaz ala bilər. Bu isə Türkiyəni böyük qaz habına çevirmək üçün yetərlidir. Bundan başqa Türkiyənin özü də qaz hasil etməyə başlayır. Həm də İsrail qazının bir hissəsinin Türkiyə üzərindən Avropaya çatdırılması planlaşdırılır. Türkiyənin yeni qazpaylayıcı mərkəzə çevrilməsi Azərbaycanın maraqlarına tam uyğun olması ilə yanaşı qardaş Türkiyəyə də böyük imkanlar açır. Bu, Avropa üçün də çox önəmlidir. AB ölkələrinin ehtiyac duyduğu qaz həcmi getdikcə artacaq. Buna görə də birbaşa olmasa da dolayısı ilə Rusiyadan qaz almaqda davam edəcəklər, başqa çarələri yoxdur. Qazın qiymətinin kəskin bahalaşması isə Avropada həm də sənaye istehsalının maya dəyərini bahalaşdırır”.

*Ekspertə görə, Almaniya və digər Avropa ölkələri iri enerji tutumlu sənaye istehsalını Türkiyəyə daşıya bilər:* ”Bunun üçün Türkiyə ideal logistik və enerji üstünlüklərinə malikdir. Həm də gənc, dinamik nüfuzu var, işsiz olan 4 mln. nəfər vətəndaşı var ki, bunlardan da 20 faizi gənclərdir. Ucuz enerji, ucuz işçi qüvvəsi, ideal coğrafi-logistik mövqeyi Türkiyəni yaxın gələcəkdə fraqmental dünyanın yeni regional liderlərindən birinə çevirəcək. Ötən əsrin 50-ci-60-cı illərində yüzminlərlə Türkiyə vətəndaşı Almaniyaya işləmək üçün axın etdi. Almaniyanın dirçəlməsində rol oynadı. İndi isə Almaniya sənayesi özü Türkiyəyə gələ bilər, bu isə qardaş ölkə üçün həyati önəmlidir”.

**İsmayıl**

# Putin Qərbin sülh fəallığına imkan verməyəcək

## Kreml rəhbəri liderlərin üçtərəfli görüşünü yaxın günlərdə reallaşdıracaq



**Rusiya Prezidenti Vladimir Putin Azərbaycan Prezidenti İlham Əliyevlə Ermənistanın Baş naziri Nikol Paşinyanı Rusiyada görüşə dəvət edib. Kreml rəhbəri bu təkliflə oktyabrın 14-də Astanada Müstəqil Dövlətlər Birliyi (MDB) Dövlət Başçıları Şurasının iclasında çıxış edib.**

Eyni gündə Rusiya Xarici işlər naziri Sergey Lavrovun vasitəçiliyi ilə Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin görüşü olub. Bundan başqa Lavrov deyib ki, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı Ermənistana Avropa İttifaqının İrəvana göndərdiyi missiyaya bənzər qrup yollaya bilər.

**Politoloq Elxan Şahinoğlu deyib ki, Kreml açıq-aşkar Avropa İttifaqının və ABŞ-ın fəallaşan vasitəçilik təşəbbüslərindən narahatdır. Putin və Lavrovun məntiqi isə sadədir:** ”İkinci Qarabağ müharibəsi Rusiyanın səyi ilə dayandırıldı. Məhz Kremlin vasitəçiliyi ilə 2020-ci ilin 10 noyabrında və 2021-ci ilin 11 yanvarında iki bəyanat qəbul edildi. İndi isə Vaşinqton və Brüssel təşəbbüslərimizi əlimizdən almağa çalışır, bu, yolverilməzdir”. Fransa Prezidenti Emmanuel Makronun son ermənipərəst, anti-Azərbaycan, eyni zamanda anti-Rusiya bəyanatı vəziyyəti daha da qəlizləşdirdi. Makronun açıqlaması Avropa İttifaqının təşəbbüslərinə kölgə salmaqla yanaşı Kremlin fəallaşmasına şərait yaratdı.

**Siyasi şərhçi Asif Nərimanlı da vurğulayıb ki, Putinin müşaviri Yuri Uşakov Moskvanın bu istəyini öncədən açıqlamışdı:** ”Qərb cəbhəsinin Bakı-İrəvan xəttində təşəbbüsü ələ alması, rusların geriyə düşməsi də rus torpaqlarında üçtərəfli görüşün təşkil ediləcəyi gözləntisini artırırdı. Böyük ehtimalla Putin görüşü yaxın günlərdə təşkil etməyə çalışacaq. Çünki Praqa razılaşmasına uyğun olaraq Aİ-Fransa Ermənistana ”mülki missiya” göndərilməsini sürətləndirir. Rusiya buna qədər təşəbbüsü yenidən ələ almaq istiqamətində addımlar atacaq. Sülh sazişi üzərində iki cəbhənin mübarizəsi regionda prosesləri yeni eskalasiyaya qədər apara bilər”.

**İsmayıl Qocayev**

# Hüquq müdafiəçisi qərarı alqışladı

## Ailələri məhkumlarla videogörüşlər keçirə biləcək



**Azərbaycanda məhkumlara videogörüşlər keçirmək hüququ verilir.**

**Bu barədə məsələ Milli Məclisin payız sessiyasının ilk iclasında müzakirəyə çıxarılan Cəzaların İcrası Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsində (ikinci oxunuş) əksini tapıb.**

Layihə ilə bağlı deputat Nizami Səfərov arayış verərək bildirib ki, sənəd məhkumlara videogörüşlər keçirmək hüququnun verilməsini, epidemiya əleyhinə rejim, sanitariya-gigiyena və karantin rejimləri dövründə görüşlərə məhdudiyyət qoyulduğu hallarda məhkumun xahişi olduqda qısa müddətli görüşlərin telefon danışıqları və videogörüşlərlə əvəz edilməsini nəzərdə tutur. Sənəd müzakirələrdən sonra səsverməyə qoyularaq qəbul edilib.

Qeyd edək ki, məhkumlar videogörüşləri xüsusi otaqda keçirəcəklər.

*Beynəlxalq İnsan Hüquqları Təşkilatının Azərbaycan bölməsinin rəhbəri Səadət Bənənyarlı ”Şərq”ə açıqlamasında sözügedən dəyişikliyi müsbət dəyərləndirib.* Onun sözlərinə görə, müxtəlif səbəblərdən məhkumlarla görüşə bilməyən, cəzaçəkmə müəssisəsinin olduğu şəhərdən uzaqda yaşayan, xaricdə yaşayan ailə üzvlərinin, yaxın insanlarının video formatda danışmasına icazə verilməsi çox gözəl qərardır.

**Şəymən**



# Nikol qərarsızdır, ancaq sülhün alternativi yoxdur

## Bakı müqaviləsinin imzalanması üçün əlindən gələni edəcək

**”Azərbaycan və Ermənistan arasında sülh müqaviləsinin imzalanması olduqca realdır. Ermənistan uzun müddətdir, prosesi bilərəkdən ləngidir. Rusiyanın Ukraynada qələbə qazanacağını düşünür. Boş xülyalara qapılıb. Zənn edir ki, Rusiyanın qələbəsi sayəsində mövqelərini möhkəmləndirəcək.**

Ermənistanın dövlətçiliyi belə təhdid altındadır, nəinki ”Artsax” xülyaları. Azərbaycan Prezidenti İlham Əliyevin Astanada Pakistanın Baş naziri Şahbaz Şəriflə görüşdə söylədiyi fikirlər həqiqətdir”.

**Bunu ”Şərq”ə açıqlamasında siyasi şərhçi Rusif Məmmədsoy deyib.**

Analitik bildirib ki, sülh müqaviləsində yer alan bəndlərdən biri delimitasiya və demarkasiyadır. Delimitasiya prosesini Azərbaycan Ordusu özü həyata keçirir. Nəticə etibarilə ermənilərin siyasi cameəsində, cəmiyyətində narahatlıq yaranır: ”Əgər Azərbaycanla qarşıdurmalardan yayınmaq istəyirlərsə, mütləq sülh sazişinə imza atmalıdılar. Hüquqi əsasa malik sülh sazişinə görə öhdəliklərinə sadiq qalmalıdırlar. Bizim üçün prioritet artıq Xankəndi deyil. Xankəndiyə zatən geri dönəcəyik. Paşinyan yükdən qurtulmaq üçün ”Azərbaycanla qondarma Dağlıq Qarabağ arasında danışıqlar başlasa yaxşı olar” deyir. Bütün yükü birbaşa Rusiyanın üzərinə atır. Xankəndidəki ermənilər və digərləri narahatlıq duyub etiraz aksiyaları keçirirlər. 15-20 min separatçı Azərbaycana ciddi təhlükə vəd etmir. Hər halda Xankəndi istiqamətində hava məkanında bizim ”Bayraktar”larımız, qırıcılarımız hərəkət etməli, qorxunu gücləndirməlidirlər”.

Analitikin qənaətincə, sülh müqaviləsini ləngidən əsas maneə Rusiya faktorudur: ”Rusiyanın Ukrayna savaşında güc itirməsi, prioritetlərinin dəyişməsi Azərbaycana münbit şərait yaradıb.

**İlham Əliyev söyləyir:** ”Azərbaycan Orta Dəhlizin önəmli hissəsini təşkil edəcək Zəngəzur dəhlizinin yaradılmasını fəal şəkildə təşviq edir”. Sözügedən açıqlama İrana yönəlikdir. Dünyanın diqqət mərkəzində olan Zəngəzur dəhlizi meqa layihələrdəndir. Ermənistan da reallığı dərk edir.

Revanşistlər bəzi fikirlər səsləndirirlər. Nikol da qərarsız qalır. Lakin sülhün alternativi yoxdur. Sülh istəyiriksə, müharibəyə də hazır olmalıyıq. Növbəti erməni təxribatı ilə üzləşə və sonra da sülh müqaviləsini imzalaya bilərik. Heç birini istisna etmək mümkün deyil. Müdafiə Nazirliyi hər dəfə ermənilərin sərhəddə təxribata cəhd etdiklərini vurğulayır. Azərbaycan mümkün addımları atacaq. Müqavilənin imzalanması üçün əlindən gələni edəcək”.

Xatırladaq ki, Azərbaycan Prezidenti İlham Əliyev Astanada Pakistanın Baş naziri Şahbaz Şəriflə görüş keçirib. Dövlət başçısı Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşdırılması və sülh müqaviləsinin imzalanması üzrə ölkəmizin təkliflərini diqqətə çatdırıb. ”Əgər Ermənistan tərəfindən siyasi iradə nümayiş olunarsa, tezliklə sülh müqaviləsi imzalana bilər”-, deyə Prezident bildirib.

**Aygün Tahir**



# Astanada sülh müqaviləsinin detalları müzakirə olunub

## Hədəf ilin sonuna qədər Cənubi Qafqazda dinclik yaratmaqdır, ancaq prosesə mane olan qüvvələr də var

İsmayıl Qocayev

**Azərbaycanın Xarici işlər naziri Ceyhun Bayramov, Rusiyanın xarici işlər naziri Sergey Lavrov, Ermənistanın Xarici işlər naziri Ararat Mirzoyan arasında Qazaxıstanın paytaxtı Astana şəhərində üçtərəfli görüş keçirilib. Görüşdə Bakı ilə İrəvan arasında münasibətlərin normallaşması məsələsi müzakirə olunub. Ceyhun Bayramov sonuncu dəfə bu formatda görüşün bu ilin may ayında Düşənbədə keçirildiyini xatırladaraq, görüşün Düşənbədən sonra inkişaflar üzrə müzakirə aparılması üçün yaxşı imkan olduğunu qeyd edib.**

Sülh müqaviləsi ilə bağlı Cenevrədə 2 oktyabr tarixində ikitərəfli görüşün keçirildiyini və həmin görüşdə Azərbaycan tərəfindən sülh müqaviləsinin əsas elementlərinin Ermənistana təqdim olunduğunu, elementlər üzrə Ermənistan tərəfindən cavab gözləndiyini bildirib. Görüşdə, eyni zamanda Azərbaycanla Ermənistan arasında normallaşmanın müxtəlif istiqamətləri ətrafında fikir mübadiləsi aparılıb.
Kommunikasiyaların açılması ilə bağlı üçtərəfli işçi qrupunda indiyə qədər aparılmış danışıqlar zamanı əldə edilmiş tərəqqi əsasında praktiki işə başlamağın vacib olduğu nazir Ceyhun Bayramov tərəfindən qeyd edilib. Delimitasiya üzrə komissiyaların artıq yaradıldığını, indiyə qədər iki görüşün keçirildiyi bildirilib. Üçüncü görüşün yaxın zamanlarda keçirilməsinin nəzərdə tutulduğu diqqətə çatdırılıb. Azərbaycanın bu prosesdə işin konkret istiqamətlər üzrə aparılmasının tərəfdarı olduğu bildirilib. Nazir üçtərəfli bəyanatların hərtərəfli icra olunmasının vacib olduğunu diqqətə çatdırıb. Bu xüsusda, Ermənistan tərəfindən bəyanatların icra olunmayan müddəalarının həyata keçirilməsinin zəruriliyi vurğulanıb. O cümlədən Ermənistan tərəfindən Azərbaycan ərazilərində minaların basdırılmasının və mina xəritələrinin tam şəkildə verilməməsinin ciddi problem olduğu qeyd edilib.

Bu arada Ermənistan parlamentinin spikeri Alen Simonyan bildirib ki, Azərbaycanla sülh müqaviləsinin mətnində Qarabağla bağlı bənd ola bilməz. Onun sözlərinə görə, Ermənistanın heç vaxt qonşu ölkəyə ərazi iddiası olmayıb. Qarabağın Azərbaycanın tərkibində olmaması ilə bağlı bənd rəsmi Bakı ilə gələcək sülh müqaviləsinə daxil edilə bilməz: ”Belə bir bəndin salınması Azərbaycanın eyni tələblər irəli sürməsinə səbəb ola və sülh müqaviləsinin həyata keçirilməsini mümkünsüz edə bilər. Düşünürəm ki, Ermənistan və Azərbaycanın imzalayacağı mümkün sülh müqaviləsində belə bir bənd olmamalıdır. Bu, eyni tələblərin irəli sürülməsinə səbəb ola bilər. İkincisi, Ermənistanın heç vaxt Azərbaycana qarşı ərazi iddiası olmayıb. Ərazinin göstərilməsi isə mümkün sülh müqaviləsinin icrasını yalnız çətinləşdirəcək və ola bilsin ki, heçə endirəcək”.

Ermənistanın Baş naziri Nikol Paşinyan deyib ki, Azərbaycanla sərhədlərin delimitasiyası MDB-nin fundamental sənədlərinə əsaslanacaq. O bildirib ki, həmin sənədlərə əsasən sovet respublikalarının keçmiş inzibati sərhədləri artıq müstəqil dövlətlər arasında dövlət sərhədlərinə çevrilib: ”Bildiyiniz kimi, biz Azərbaycanla münasibətlərimizin normallaşdırılması üzərində işləyirik. Bu kontekstdə MDB-nin rolunun vacibliyini qeyd etməyi zəruri hesab edirik. Normallaşma prosesində delimitasiya və sərhəd komissiyalarının işi də davam edir. Komissiyanın yaradılması barədə razılıq 2021-ci il noyabrın 26-da Soçidə Rusiya prezidenti, Azərbaycan prezidenti və Ermənistanın baş nazirinin üçtərəfli görüşü zamanı əldə olunub”.

**Azərbaycan Milli İstiqlal Partiyasının Siyasi Şurasının üzvü, politoloq Əli Oruclu ”Şərq”ə deyib ki, Ermənistanla-Azərbaycan arasında sülhün əldə olunması və tərəflərin bəyan etdikləri şərtlər daxilində sülh müqaviləsinin imzalanması dünyanın təlatümlü regionlarından biri olan Cənubi Qafqaza bir qədər dinclik gətirərdi.** Partiya rəsmisinin sözlərinə görə, davamlı sülh həm uzun illər münaqişələrin və müharibələrin ağrısını acısını yaşayan xalqlar üçün, həm də dünyanın nüfuz və təsir dairəsi uğrunda böyük güclərin apardığı qanlı mübarizə fonunda Cənubi Qafqazın artan geopolitik önəmi fonunda çox vacibdir: ”44 günlük müharibədə zəfər qazanan Azərbaycan demək olar ki, qüvvələr nisbətini dəyişdi. Üstəlik, Ankara-Bakı müttəfiqliyi Qərbi məcbur etdi ki, Xəzər hövzəsinə və Azərbaycan-Ermənistan münasibətlərinə ciddi düzəlişlər etsin. Bu baxımdan anlayırlar ki, Ermənistanla Azərbaycan arasında münasibətlər normallaşmasa, bu iki dövlət arasında sülh müqaviləsi imzalanmasa, regionda dayanıqlı sülhdən və təhlükəsizlikdən danışmaq qeyri-mümkündür. Eynən də Qərbin uzunmüddətli və strateji planlarının həyata keçirilməsi real görünmür”.

**Ə.Orucluya görə, son dövrlər Qərb, Rusiya, İran və Türkiyə regionla bağlı diplomatik fəallıqlarını artırmaqdadır:** ”Bəzən buna sərt ritorika və güc çalarları da əlavə olunur. Xüsusən İran və Rusiya tərəfindən Cənubi Qafqaz, xüsusən, əsas halqa olan Azərbaycan uğrunda ciddi rəqabət gedir. Heç bir tərəf təşəbbüsü əldən vermək istəmir. Azərbaycanı itirməmək üçün Ermənistana təzyiqlər edilir ki, normallaşma sürəcini sürətləndirsin. Məhz buna görə də Ermənistanla Azərbaycan arasında yetkili şəxslərin həm ikitərəfli, həm çoxformatlı təmasları intensivləşib. Astanada yenidən xarici işlər nazirləri Lavrovun iştirakı ilə bir araya gəlib, sülh müqaviləsinin detallarını bir daha müzakirə etdilər. Rusiya prezidenti Paşinyan və cənab İlham Əliyevi Moskvaya görüşə dəvət etdi. Ancaq prosesi ləngidən və buna mane olan qüvvələr də var. Məsələn, Avropa Birliyi sülh müqaviləsinin tezliklə imzalanmasını təşviq etsə də, Birliyin ən böyük və nüfuzlu üzvü olan Fransa destruktiv mövqe sərgiləyir. İran isə hədə və güc dilindən danışmaqdan çəkinmir. Beynəlxalq Erməni Diasporu da sülh müqaviləsinə qarşı çıxır. Xankəndidə məskunlaşmış qondarma rejimin ”nümayəndələri” də Rusiyanın fəal dəstəyi və himayəsi altında cəsarətdə bulunurlar. Əlbəttə, deməzdim ki, rəsmi Moskva Ermənistan-Azərbaycan arasında normallaşmanı arzulayır və buna can-başla çalışır. Moskva ikili oynayır. Prosesləri təhlil etdikdə Ermənistanla Azərbaycan arasında sülh müqaviləsinin ilin sonunadək bağlanması mümkün görünmür. Məncə, Ermənistanın özü də bunu istəmir və həvəssiz yanaşır. Üstəlik, humanitar, siyasi, psixoloji və digər problemlər qalmaqdadır. Amma gec-tez sülh müqaviləsi imzalanmalıdır. Azərbaycan da özünü bundan sonrakı proseslərə hazırlamalıdır”.

# Fransanın cəhdləri gərginliyi artıracaq

## Sərhəddə mövqeyimizin atəşə tutulması əmri bu dəfə Parisdən gəlir



**Kəlbəcər istiqamətində mövqelərimiz atəşə tutulub. Bu barədə Müdafiə Nazirliyindən məlumat verilib. Məlumatda qeyd olunub:**

”Oktyabrın 13-ü saat 15:15-dən saat 15:50-dək Ermənistan silahlı qüvvələrinin bölmələri Basarkeçər rayonunun Yuxarı Şorca və İstisu yaşayış məntəqələri istiqamətlərində yerləşən mövqelərindən Ordumuzun Kəlbəcər rayonunun Əlibayramlı və İstisu yaşayış məntəqələri istiqamətlərində yerləşən mövqelərini müxtəlif çaplı atıcı silahlardan istifadə etməklə fasilələrlə atəşə tutub”.

Azərbaycan Ordusunun qeyd olunan istiqamətlərdə yerləşən bölmələri tərəfindən adekvat cavab tədbirləri görülüb.

**Hərbi ekspert Elxan Şıxəliyev Kəlbəcər istiqamətində mövqelərimizin atəşə tutulmasından ”Şərq”ə danışarkən bildirib ki, biz Ermənistan siyasilərinin sülhlə bağlı verdiyi bəyanatları sərhəddəki vəziyyətlə dəyərləndirməliyik:**
”Tərəflər arasında baş tutan görüşlərdən, xüsusilə də Praqa görüşündən sonra Ermənistan baş naziri və xarici işlər naziri də ilin sonuna kimi Azərbaycanla sülh bağlamağın mümkünlüyü ilə bağlı mesajlar verdilər. Amma sərhəddə bunun təzahürünü görmürük.

Deməli, onlar ikili oynayırlar. Bizlə təmas vəziyyətində olan bölmələrə xüsusən də Kəlbəcər, Laçın, Daşkəsən, Tovuz istiqamətindəki korpus komandirlərinə birbaşa atəşkəsin pozulması yönündə tapşırıqlar verirlər. Bununla belə təəssürat yaratmağa çalışırlar ki, sərhəddəki vəziyyətə görə sülh sazişini imzalamaq üçün əlavə vaxt lazımdır. Rəsmi İrəvan reallıqda Azərbaycanın təklif etdiyi şərtlərlə razı olmaq istəmir.

Sərhədlərin, Qarabağın birbaşa Azərbaycanın ərazi bütövlüyü çərçivəsində tanınması İrəvanda əhalinin və qeyri-qanuni qurumların çox ciddi mübahisəsinə səbəb olub”.

**Ekspertin sözlərinə görə, Ermənistan siyasi rəhbərliyi sülhə hazır deyil və bunu birbaşa deyə bilmir:** ”Praqada, Astanada olan görüşlərdə müəyyən məsələlərlə razılaşıb, ölkəyə gəldikdə isə öz xalqının tələblərinə görə başqa bir müstəviyə keçirlər. Sərhəddə vəziyyəti gərginləşdirib beynəlxalq ictimaiyyətə güya bizim sülh istəmədiyimizi diktə edirlər. Burda Fransanın




Ermənistana verdiyi dəstək mesajları da var.

Xüsusilə də Fransa prezidentinin iki yerli kanala verdiyi müsahibədə ”Qarabağ Ermənistanın ürəyidir” deməsi də onları sülhdən yayınmağa həvəsləndirir. Fransayla olan belə münasibət rəsmi İrəvanla Azərbaycanın münasibətlərini daha da gərginləşdirəcək. Gərginliyin artması yönündə Ermənistan öz tələblərini irəli sürəcək. Düşünürəm ki, artıq Ermənistan Rusiyanın təsirindən çıxıb Fransanın təsiri altına düşmək istiqamətində addımlayır.

Bütün bunları nəzərə alaraq deyə bilərik ki, bundan sonra Azərbaycan-Ermənistan sərhədində atəşkəsin pozulması senarilərinin Parisdə yazılmasına şahidlik edəcəyik”.

**Günəş Mərd**

# Qırmızı diplomlar harda qaldı?

## Parlamentdə təhsillə bağlı problemlər dilə gətirildi

**Dünən Milli Məclisin payız sessiyasının növbəti plenar iclası keçirilib. İclasın gündəliyində 22 məsələ olub. Gündəlikdən öncə cari məsələlərlə bağlı çıxış edən deputatlar Fransa Prezidenti Emmanuel Makronun təxribatçı açıqlamaları daxil olmaqla bir sıra problemləri gündəmə gətiriblər, təkliflər səsləndiriblər.**

Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədr müavini Qüdrət Həsənquliyev deyib ki, 1 milyon müsəlman azərbaycanlı az qala 34 ildir qaçqın və məcburi köçkün həyatı yaşayır. Deputat vurğulayıb ki, Azərbaycanın əraziləri 30 il işğal olunandan Ermənistana deyilmədi ki, sən öz sərhədlərinə qayıtmalısan, sənə sanksiya tətbiq ediləcək: ”İndi Putin Rusiyası qismən neytrallığını qorumağa çalışır. Amma Rusiya Ermənistan tərəfdən vuruşsaydı, ”satılmaram” deyən Makron Rusiyaya təşəkkür edərdi. Ermənistana vaxtında təzyiq göstərilsəydi, 13-14 sentyabrda Ermənistanın təxribatı da baş verməzdi. Ermənistana vicdansız dəstəyinə görə Fransa birbaşa məsuliyyət daşıyır. Senat Azərbaycana qarşı 15 noyabrda qətnamə qəbul etməyə hazırlaşır. Belə qətnamə qəbul edilsə, Azərbaycan Fransadakı səfirini geri çağırmalı, diplomatik münasibətlərə yenidən baxılmalıdır”.

**“Makron nə danışdığını bilmir, Praqada mollalıq edirdi”**

**Milli Məclisin regional məsələlər komitəsinin sədri Siyavuş Novruzov deyib ki, Makron harada nə danışdığını bilmir. Bir həftə bundan qabaq Praqada mollalıq edirdi. Praqa görüşündən sonra isə ”France 2”-yə müsahibəsində Ermənistana dəstək verdi:** ”Bu gündən başlayıb Fransa Senatına bəyanatlar göndərməliyik. Buradan görünür ki, bütün dövlətlər üçün maraqlar var. O vaxt ulu öndər Heydər Əliyev çox düzgün qeyd etmişdi ki, Fransa həmsədr dövlət ola bilməz, çünki erməni dəstəkçisidir. Lazım gələrsə, Fransa ilə bütün diplomatik əlaqələr kəsilməlidir. BMT-də Azərbaycan çox düzgün mövqe sərgilədi. Bu gün erməni çörəyi yeyənlər Azərbaycanı başqa yerə sürükləmək istəyir. Xatırlayıram ki, Azərbaycanın ərazi bütövlüyü məsələsi BMT-də müzakirəyə çıxarılanda buna cəmi 14 ölkə səs vermişdi”.

**“Müəllim işləmək üçün niyə yenidən testdən keçməlidir?”**

Komitə sədri Siyavuş Novruzov deyib ki, müəllimlərlə bağlı çox böyük problem var: ”Elələri var ki, müəllim ixtisasını qımızı diplomla bitirir, amma həmin şəxs müəllim işləmək üçün yenidən imtahan verməli olur. Dövlət buna diplom verib, bunun biliyini qiymətləndirib. Bunun 4 il-6 il oxuduğu təhsili qoyurlar qırağa, Təhsil Nazirliyində yaranmış bir komissiya var ki, müəllimliyi bitirənlər o komissiyadan keçəndən sonra müəllim işləyə bilir. Bizdə çox sayda müəllim var. Onların hamısının attestasiyadan keçməsi nə dərəcədə düzgündür? Ola bilər ki, ixtisasartırma tətbiq olunsun. Yeni sistemə doğru biz gediriksə, müəllimlərin, həkimlərin təkmilləşdirilməsi institutu var. Bu institutlarda yenilikləri onlar öyrənə bilər. Amma ali məktəbi bitirən müəllim işləmək üçün niyə yenidən testdən keçməlidir? Artıq başqa sahələrdə bu, tətbiq edilməyə başlanıb. Xaricdə belə şey olsa, Harvard Universitetini oxuyan imtahandan keçməsə, o gedib Harvard Universitetini məhkəməyə verər. Burada oturub ya Lerikdə, ya Qazaxda, ya Naxçıvanda müəllim təyin etmək doğru sistem deyil. Bu sistem haradan gəlib bizə çıxıb, mən bilmirəm. Aidiyyəti strukturlar bu sistemi təkmilləşdirsə, daha yaxşı olar”.



Müəllimlərin hamısının attestasiyadan keçməsi doğru deyil



**“Qeyri-qanuni yolla vəsait çıxaranlar xaricdə evlər, maşınlar, xidmət sahələri alır”**

**Millət vəkili Vahid Əhmədov vurğulayıb ki, Azərbaycan iqtisadiyyatından qeyri-qanuni köçürmələr kifayət qədər yüksəkdir:** ”Azərbaycanda, o cümlədən MDB məkanında qeyri-qanuni köçürmələrin miqdarı artır. Bunlar necə köçürülür?! Köçürmə çox ciddi məsələdir. Dövlət Sərhəd Xidməti, Dövlət Gömrük Komitəsi bununla bağlı işlər görür, cinayət işləri aparır. Amma yenə də Azərbaycandan çıxarılan vəsaitlər artır. Azərbaycanda maliyyə amnistiyası tətbiq olunmalıdır. Qeyri-qanuni yolla vəsait çıxaranlar xaricdə evlər, maşınlar, xidmət sahələri alır ki, onun Azərbaycana heç bir xeyri yoxdur. Digər dövlətlərin çoxunda belə amnistiyalar qəbul edilib. İndiyə qədər Azərbaycanda gəlir deklarasiyası tətbiq edilmir. 10 ildir ki, bu sənəd qəbul edilmir. Bu iki sənəd qəbul olunsa, Azərbaycandan kütləvi pul köçürmələrin də qarşısı alınar”.

**“Gəlir deklarasiyasına dair qanun layihəsi hazırlanır”**

**Milli Məclis sədrinin birinci müavini Əli Hüseynli isə deyib ki, iqtisadiyyatımız tam sağlamlaşmaya doğru gedir:** ”Bir çox ölkədə gəlir deklarasiyası var, amma orada korrupsiya çox yüksəkdir. İqtisadi sahədə olan cinayətlərin dekriminallaşdırılması daha yaxşı effekt verir. Gəlirlərlə bağlı deklarasiya hazırlanma mərhələsindədir. Qanunvericilik baxımından Vahid müəllim haqlıdır, amma yenə də deyirəm ki, digər üsullar bu cinayətlərdə daha çox effekt verir. Maliyyə amnistiyası tətbiq edilən ölkələrdə iqtisadiyyat tam kriminallaşır. Əminəm ki, 2018-ci ildən başlayan islahatların yeni mərhələsi daha çox effekt verəcək”.

**“Parlamentdə şəhid ailələrinin statusuna yenidən baxılması təklif olunub”**

**Deputat Müşfiq Cəfərov bildirib ki, Gəncədən olan 30-a yaxın şəhid övladı ona müraciət edərək imtiyazlarına düzəlişlərin edilməsini istəyiblər:** ”Qanunvericiliyə əsasən şəhid övladları 18 yaşına kimi, təhsillə vəziyyəti ilə bağlı isə 23 yaşına qədər dövlətin himayəsində olurlar. 18 yaşından sonra şəhid övladının şəhid ailəsi statusu ləğv edilir. Bir qayda olaraq Azərbaycan mentalitetində valideynlər ömürlərinin sonuna qədər öz övladlarını həm maddi, həm də mənəvi olaraq himayə edirlər. Düşünürəm ki, şəhid övladlarının himayədarı Azərbaycan dövlətidir”. Parlament üzvü deyib ki, şəhidin varisi olan həyat yoldaşı və ya anası vəfat etdikdə onun ev növbəliliyi ləğv olunur: ”Bu hüquq şəhid qardaşı və ya bacısına keçmir. Bu məsələnin öz həllini tapması dövlətimizin şəhid ailələrinə olan diqqət və qayğısını daha da möhkəmləndirib, təkmilləşdirəcək.

**“Məcburi köçkünlərin müvəqqəti yaşadığı evlərdən çıxarılması kütləvi hal alıb”**

*Deputat Aqil Məmmədov deyib ki, məcburi köçkün müraciət edir ki, 30 ilə yaxındır müvəqqəti yaşadığı evdən məhkəmə qərarı ilə çıxarılması tələbi qoyulub. Onun sözlərinə görə, əvvəllər də bu məsələyə baxılıb:* ”Ulu öndər bildirmişdi ki, məcburi köçkünü evlə təmin etmədən o, müvəqqəti yaşadığı yerdən çıxarıla bilməz. Bu gün torpaqlarımız işğaldan azad olunub, lakin məcburi köçkünlər hələ öz yurd-yuvasına qayıtmayıb. Məcburi köçkünlər evlə təmin edilmədən məhkəmə qərarı ilə onların müvəqqəti yaşadığı evlərdən çıxarılması tələb edilir. Təklif edirəm ki, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi ilə bu məsələ müzakirə edilsin. Məhkəmə qərarları qəbul edilən zaman Dövlət Komitəsindən nümayəndə çağırılsın. Artıq onların müvəqqəti yaşadığı evlərdən çıxarılması kütləvi hal alıb. Onlar evlə təmin olunmadan yaşadığı müvəqqəti yerdən çıxarılsa, harada yaşayacaq?! Məcburi köçkün evlə təmin olunmayana qədər müvəqqəti yaşadığı yerdən çıxarıla bilməz”.

**İsmayıl Qocayev**



# İran içindən çürüyür

## Ölkədə cərəyan edən hadisələr göstərir ki, xalq artıq orta əsr təfəkkürünü, teokratik idarəçiliyi, anti-insani davranışı qəbul etmir

**İran Prezident Administrasiyasının nümayəndəsi Məhəmməd Cəmşidi bildirib ki, rəsmi Tehran bölgədəki tarixi sərhədlərin və Ermənistanla tranzit marşrutların dəyişdirilməsini qəbul etməyəcək. O deyib ki, İran Prezidenti İbrahim Rəisi bu mövqeyini Astana səfərində Azərbaycan Prezidenti ilə görüşdə bir daha təkrarlayıb:**

”Prezident Rəisi bir daha xatırladıb ki, tarixi sərhədlərdə, regional geosiyasətdə və İran-Ermənistan tranzit marşrutlarında istənilən dəyişikliyə İran qəti şəkildə cavab verəcək”. İran İslam İnqilabı Keşikçiləri Korpusunun (SEPAH) ”Aşura” regional qərargahının Azərbaycanla sərhəddə genişmiqyaslı hərbi təlim keçirəcək olması da bu aspektdən diqqət çəkir. Rəsmi Tehran Məhəmməd Cəmşidinin son açıqlaması və Azərbaycanla sərhəddə genişmiqyaslı hərbi təlim keçirməyi planlaması ilə Bakıya ”qərarlı” olduğunu göstərməyə çalışır. Lakin bunların fayda verəcəyi inandırıcı görünmür. Rəsmi Bakı İranın bu kimi təzyiqləri ilə dəfələrlə qarşılaşıb və onların heç biri Azərbaycanın bölgə siyasətinə əhəmiyyətli şəkildə təsir etməyib.

**Siyasi şərhçi Turan Rzayev ”Şərq”ə bildirib ki, İran öz ənənəvi siyasətinə sadiq qalaraq ermənipərəst və anti-Azərbaycan xəttini davam etdirir. Onun fikrincə, Cəmşidinin ”İran-Ermənistan tranzit marşrutları”na guya hansısa təhlükə yaranacağı barədə sözləri cəfəngiyyatdan başqa bir şey deyil:** ”İran 30 illik işğal dövründə bir dəfə də olsun, Ermənistanın sərhədləri işğal yolu ilə dəyişdirməsinə etiraz etməyib. Əksinə, rəsmi Tehran hər zaman Ermənistanı müdafiə edib. Bu da azmış kimi İran şirkətləri Azərbaycanın işğal edilmiş ərazilərində qarət və talançılıq prosesində yaxından iştirak ediblər. İran ermənipərəst siyasətini açıq müstəviyə keçirib. Aydın məsələdir ki, İran sadəcə olaraq, Azərbaycanın güclənməsinə qarşı çıxır və 44 günlük savaşda bunu bir daha göstərmiş oldu. 44 günlük Vətən müharibəsi dövründə İran rəhbərliyi ən sonuncular sırasında, artıq müharibənin taleyinin həll edildiyini və Azərbaycanın şəksiz qələbə qazandığına əmin olduqdan sonra ölkəmizə dəstək ifadə edən bəyanat verib. Amma müharibənin gedişində Ermənistana silah göndərilməsindən tutmuş Azərbaycanın təhdid olunmasına kimi ölkəmizə qarşı hər cür vasitələrdən istifadə edib. Azərbaycanın torpaqları işğal altında olan dövrdə yalnız növbətçi bəyanatlarla kifayətlənən İran rəsmiləri indi Ermənistanın ərazi bütövlüyünün ”qırmızı xətt” olması ilə bağlı ardıcıl bəyanatlar verir. Azərbaycana qarşı hədələr səsləndirir, bütün mümkün vasitələrlə Ermənistanı müdafiə edirlər”.

*T.Rzayev vurğulayıb ki, İranda azərbaycanlıların və ermənilərin hüquq və azadlıqlarına olan münasibəti də rəsmi Tehranın ikiüzlü siyasət yürütdüyünü aydın göstərir:* ”İranda 100 min erməni yaşayır. İranın Konstitusiyanın 15-ci və 19-cu maddələrinə əsasən, ölkədə yaşayan bütün etniklər öz ana dilində təhsil almalı, vətəndaş hüquqlarına malik olmalıdırlar. Buna baxmayaraq, İranda yaşayan qeyri-fars xalqları arasında yalnız ermənilərin ana dilində məktəbləri mövcuddur. Bundan başqa, İranda ermənilər uşaq bağçasından universitetədək öz ana dillərində təhsil alır, məktəblərdə erməni ədəbiyyatı, tarixi tədris olunur. Universitetdə isə erməni dili fakültəsində təhsillərini davam etdirə bilirlər. Paytaxt Tehranda sırf ermənilər üçün 23 məktəb var. Eyni zamanda ermənilərin milli və dini bayramlarını qeyd etmək hüququ rəsmi şəkildə tanınır. Erməni Qriqoryan kilsəsinin İran üzrə Atropaten, Tehran və İsfahan yeparxiyaları fəaliyyət göstərir. Ümumilikdə, bu yeparxiyaların tərkibinə 40 kilsə daxildir. Cəmi 100 min erməniyə məxsus bu sərbəstliyin yüzdə biri İranda çoxluq təşkil edən 45 milyon azərbaycanlıya verilmir. İran hakimiyyəti azərbaycanlıları bütün hüquqlardan məhrum edib, ana dilində təhsil almaq, yazmaq hüququnu belə əlindən alıb. İranda azərbaycanlıların hər hansı birlik, təşkilat yaratması hakimiyyətə və dövlətə qarşı təhdid kimi dəyərləndirilir və bundan irəli gələn sərt addımlar atılır”.

***T.Rzayev bəyan edib ki, molla rejiminin tətbiq etdiyi üsul-idarə içdən çürüyür:*** ”İranda azərbaycanlıların və ermənilərin hüquq və azadlıqlarına olan münasibət əslində, bu ölkənin əsl mahiyyətini göstərir. Hazırda İranda cərəyan edən hadisələr, kütləvi etirazlar, iğtişaşlar insanların molla rejiminin tətbiq etdiyi üsul-idarə ilə artıq barışmadığını göstərir. İran cəmiyyəti artıq din amilindən istifadə etməklə bütün hüquq və azadlıqlarının məhdudlaşdırılmasını, orta əsr təfəkkürünü, teokratik idarəçiliyi, anti-insani davranışı qəbul etmir. İrandakı sosial vəziyyət, hətta şah rejimindən daha pis bir haldadır. Rejim özü bunun fərqində olsa da, hələ də effektiv addımlar atmır. Əksinə, Qərblə rəqabət fonunda nəticə əldə etməyə çalışır. Hazırkı etiraz aksiyalarının tempi belə davam etsə rejimin devrilməsi ilə nəticələnə bilər”.

**İsmayıl**

# "Vahid Əhmədova təklifinə görə təşəkkür edirəm"

## Üzeyir Cəfərov: “Sülhməramlılar daxil hərbi xidmətdə həlak olan bütün hərbçilərə şəhid statusu verilməlidir”



**Milli Məclisin dünən keçirilən plenar iclasında deputat Vahid Əhmədov sülhməramlılara şəhid statusu verilməsini təklif edib. O qeyd edib ki, Azərbaycanda şəhid ailələri və qazilərlə əlaqədar problemlər, veteran statusunun verilməsi istiqamətində əngəllər aradan qaldırılmalıdır:**

”Bir xanım mənə məktub ünvanlayıb. Oğlunun Əfqanıstanda və İraqda vuruşub, İraqda şəhid olduğunu deyib. 14 ildir, hərbçimiz şəhid olub, ona şəhid statusu verilmir. Bizim sülhməramlılar başqa ölkələrdə vuruşanda şəhid olurlarsa, onlara şəhid statusu verilməlidir”.

Qeyd edək ki, İraqdakı sülhməramlı əsgərlərdən biri - Rəfael Ağayev 2008-ci ilin iyun ayında təsadüfən silahdan açılan atəş nəticəsində həlak olub.

**Hərbi ekspert, ehtiyatda olan polkovnik Üzeyir Cəfərov isə ”Şərq”ə açıqlamasında Vahid Əhmədovun təklifinin təqdirəlayiq və dünyanın qaynar nöqtələrində hərbi xidmət keçən sülhməramlılara da hansısa səbəbdən dünyasını dəyişən zaman onlara da şəhid statusu verilməli olduğunu bildirib:** ”Düzdür, Azərbaycan sülhməramlıları hərbi əməliyyatlarda iştirak etmir və sülh yaratmaq üçün hərbi xidmət keçir, yolların və dövlət əhəmiyyətli obyektlərin qorunması ilə məşğul olurlar. Amma bir məsələ var ki, heç bir vətəndaşın xaricdə xidmət etmək öhdəliyi yoxdur. Onları da müvafiq qurumlar sülhməramlı kimi xaricdə hərbi xidmətə göndərir. Bu adam hərbi vəzifəsini icra edərkən həlak olubsa, ona şəhid statusunun verilməsi üçün hansı ölkədə hərbi xidmət keçməsinə görə fərq qoyulmamalıdır. Bu məsələni qaldırdığı üçün Vahid müəllimə təşəkkür edirəm. Amma 1994-cü il mayın 12-dən bu günə qədər Azərbaycan Silahlı Qüvvələrinin 200 nəfərdən artıq hərbi qulluqçusu içimizdəki ”ermənilərin”, yaramaz əsgər və zabitlərin açdığı gülədən qətlə yetirilib. Onlara da şəhid adını vermək haqqında düşünmək, bu məsələni də parlamentdə qaldırmaq lazımdır. Bu hərbçilərin ailələri ötən həftələrə qədər ölkə başçısı İlham Əliyevin Hərbi məsələlər üzrə köməkçisi general, polkovnik Məhərrəm Əliyevin qəbulunda olub, öz narahatlıqlarını ona bildiriblər. Məhərrəm Əliyev də həmin valideynlərə bu məsələnin Milli Məclisdə müzakirəyə qoyulacağına söz vermişdi”.

*Ü.Cəfərovun fikrincə, valideynlər haqlı olaraq Vətənin müdafiəsi üçün hərbi xidmətə yola saldığı övladının xidmət vaxtı başına hər hansı bir bədbəxt hadisə gəlibsə, ona şəhid adının verilməsini tələb edir:* ”Hesab edirəm ki, hərbi xidmət vəzifəsini icra edərkən həyatını itirmiş bütün əsgər və zabitlərimizə şəhid statusu verilməlidir. Çox güman onların bu haqqı veriləcək, amma məsələni uzatmaq lazım deyil. Hərbi xidmətdən boyun qaçırmaq üçün intihar edən, özünə atəş açan hərbi vəzifələr istisna olmaqla bütün hallarda hərbi xidmətdə həlak olan əsgər və zabitlərə şəhid statusu verilməlidir. Sülhməramlılar da daxil. Türkiyə qanunlarına görə, hərbi xidmətə çağırıldığı ilk gündən düşmən gülləsindən və ya ehtiyatsızlıqdan, hətta arı sancmasından, xəstəlikdən və ya hansısa bədbəxt hadisə nəticəsində vəfat edən əsgər şəhid statusu alır. Azərbaycan qanunvericiliyində isə bu sahədə ciddi boşluqlar var. Qanuna əsasən Azərbaycan Respublikasının azadlığı, süverenliyi və ərazi bütövlüyü ilə əlaqədar Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş digər hadisələrdə, o cümlədən atəşkəs dövründə döyüş şəraitində olan hərbi hissələrdə və ya daxili işlər, milli təhlükəsizlik orqanlarında döyüş tapşırığının və ya döyüş təminatı ilə bağlı tapşırıqların yerinə yetirilməsi üzrə xidməti vəzifəsinin icrası zamanı həlak olmuş, itkin düşmüş və məhkəmənin qərarına əsasən ölmüş hesab edilən şəxslər şəhid hesab edilirlər. Yəni Nardaranda, Gəncədə xidməti vəzifəsini icra edərkən həyatını itirən polis əməkdaşı şəhid adı alır, amma düşmənlə üzbəüz postlarda Vətənin ərazi bütövlüyü uğrunda mübarizə aparan əsgər, gizir və ya zabit döyüşdən kənar xidməti vəzifəsini icra edərkən vəfat edərsə, o, şəhid sayılmır!? Müxtəlif illərdə ermənilərə qarşı həyata keçirilən lokal döyüş əməliyyatlarında iştirak edən uşaqların əksəriyyəti hələ də müharibə veteranı statusu ala bilmir. Mütləq ki, əsgər yaralanmalı, güllə yarası almalıdır ki, onu qazi kimi qəbul etsinlər. Axı döyüş tapşırığını icra etmək sadəcə güllə atmaqdan ibarət deyil!? Məgər atışmanın ortasında döyüşən əsgərə yemək bişirmək döyüş tapşırığı icra etmək deyil? Axı həmin hərbi vəzifəlilər güllə yarası almasa da, mütləq ki ciddi psixoloji yara alırlar. Birmənalı qəbul etmək lazımdır ki, hərbi xidmətə çağırıldığı gündən etibarən dünyasını dəyişən əsgər şəhid sayılır”.

*Hərbi ekspert ümid edir ki, deputatın təklifi digər parlamentarilər tərəfindən də dəstəklənəcək və yaxın zamanlarda dəyişikliklər qəbul ediləcək:* ”Mən o ananın hisslərini çox gözəl anlayıram. Haqlı olaraq, Azərbaycan dövlətinin Əfqanıstan, İraq, Kosova kimi qaynar nöqtələrə hərbi xidmət tapşırığı ilə göndərdiyi oğluna şəhid adının verilməsini istəyir”.

**Şəymən Bayramova**

# Azərbaycan Mərkəzi Asiyada aparıcı qüvvəyə çevrilir

## Ölkəmizin nüfuzu Türk Dövlətlər Təşkilatının qlobal mövqelərinə də güclü təsir göstərir




**Prezident İlham Əliyevin siyasi xətti, uğurlu diplomatik addımları Avropadan Asiyaya qədər geniş sferada maraqla qarşılanır. Dövlət başçısı dünya səviyyəli təşkilatlarda vacib çıxışlar edir, həll modelləri və gələcəyə yönəlik təkliflər səsləndirir.**

Prezidentin şəxsi nüfuzu, liderlik keyfiyyətləri Azərbaycanın beynəlxalq aləmdə mövqelərinin güclənməyi ilə müşahidə edilir. Ölkəmiz hazırda təkcə siyasi deyil, təhlükəsizlik, iqtisadi, humanitar və mədəni anlamda bütün dünyanın diqqətinə səbəb olan ölkədir. Ölkə başçısının pandemiyanın ən kəskin dövründə koronavirus bəlasına qarşı mübarizəsi, belə həssas dövrdə Qarabağı işğaldan azad etməyi və qısa zaman ərzində bu qədər işlər görməyi hər yerdə təqdir edilir. Həmçinin, ölkəmizin uğurlarının artması Azərbaycanın təmsil olunduğu təşkilatlarda da mövqelərimizin daha da güclənməyinə səbəb olur. Azərbaycan təmsil olunduğu təşkilatlara əvəzedilməz töhfələr bəxş edir.

Praqada əldə etdiyimiz növbəti diplomatik qələbədən sonra Azərbaycan Prezidentinin Qırğızıstan və Qazaxıstan səfərinin vacib xüsusiyyətləri var. Nəzərə almaq lazımdır ki, Azərbaycanın mövqeyi Avropadan Mərkəzi Asiyaya, Cənubi Amerikadan Afrikaya qədər böyük coğrafi areallarda maraqla izlənilir. Ölkəmiz həm Qoşulmama Hərəkatı, həm də Türk Dövlətləri Təşkilatında (TDT) vacib layihələrin həyata keçirilməsində əsas icraçılardan biridir. Azərbaycanla Türkiyə arasında Şuşa Bəyannaməsinin imzalanmasından sonra TDT nəzdində əlaqələr daha da gücləndi. Qırğızıstan Azərbaycanın əməkdaşlıq etdiyi ən önəmli Mərkəzi Asiya ölkələrindən biridir. Bütövlükdə nəzərə almaq lazımdır ki, bu gün Azərbaycan Türk Dövlətləri Təşkilatının nəzdində inteqrasiyanın, eyni zamanda, dövlətlərarası münasibətlərin inkişafında vacib və kilid nöqtələrdən birini təmsil edir. Bu gün Qırğızıstan-Azərbaycan əlaqələri kifayət qədər yüksək səviyyədədir. Bu iki ölkə təkcə siyasi deyil, eyni zamanda, iqtisadi, mədəni, humanitar sahələrdə geniş vektorlu əməkdaşlıq həyata keçirirlər.

Prezident İlham Əliyev daha əvvəl Qazaxıstan, Özbəkistan və Qırğızıstanla bir çox sahələr üzrə müqavilələr imzalayıb. Eyni zamanda, Qırğızıstana səfər edərək bir çox layihələrlə bağlı razılığa gəlib. Ölkəmizin Mərkəzi Asiyada aparıcı qüvvələrdən birinə çevrilməyi TDT-nin qlobal mövqelərinə də güclü təsir göstərir. Eyni zamanda Azərbaycan Qazaxıstanla da Birləşmiş Millətlər Təşkilatı, ATƏT, Avrotlantik Tərəfdaşlıq Şurası, İslam Əməkdaşlıq Təşkilatı, Türk Dövlətləri Təşkilatı, Beynəlxalq Türk Akademiyası kimi mühüm təşkilatlarla əməkdaşlıq edir. Azərbaycanla Qazaxıstan arasında əlaqələr yüksək səviyyədədir. Bunu iki ölkə prezidentlərinin qarşılıqlı səfərləri də sübut edir. İndiyədək ölkələrimiz arasında əlaqələrin inkişafına dair 119 ikitərəfli sənəd imzalanıb. Bu sənədlər iki ölkənin münasibətlərinin müxtəlif sahələrdə inkişafına daha da töhfə verib. Azərbaycan və Qazaxıstan geniş iqtisadi potensiala malikdir. Hər iki ölkə ”Beynəlxalq Transxəzər Nəqliyyat Marşrutu” çərçivəsində əməkdaşlıq edir. Bu ilin son 6 ayı ərzində əvvəlcə Qırğızıstan Prezidenti Sadır Japarovun, Qazaxıstan Prezidenti Qasım-Comart Tokayevin Azərbaycana, bu günlərdə isə Prezident İlham Əliyevin Qırğızıstana və Qazaxıstana səfərləri bu ölkələr arasında əlaqələrin strateji səviyyəsini göstərir.

”Azərbaycan və Qırğızıstanı bir çox ortaq dəyərlər birləşdirir. Xalqlarımız eyni soykökə və mədəni dəyərlərə malik xalqlardır. Ölkələrimiz arasında münasibətləri yaxınlaşdıran da məhz bu dəyərlərdir. Azərbaycan və Qırğızıstan strateji tərəfdaş ölkələrdir. Yarım il əvvəl iki ölkə arasında imzalanmış strateji tərəfdaşlıq haqqında Bəyannamə münasibətləri keyfiyyətcə yeni səviyyəyə çıxarıb. Belə ki, ölkələrimiz arasında mədəni-humanitar, iqtisadiyyat, nəqliyyat, təhsil, yüksək texnologiyalar sahələri ilə bağlı geniş məsələlər ətraflı müzakirə olunaraq artıq real siyasət sahəsinə transformasiya olunub. Azərbaycan-Qırğızıstan əməkdaşlığı nəticələrə hədəfləndiyi üçün nəzərdə tutulandan daha tez reallaşır.”

**Millət vəkili Cavid Osmanov ”Şərq”ə deyib ki, Azərbaycan və Qırğızıstan türkdilli dövlətlər arasında qardaşlıq münasibətlərinin möhkəmlənməsinə fəal töhfə verir.** Bundan da türk dünyası yeni potensial əldə edir. Deputatın sözlərinə görə, effektiv əməkdaşlıq beynəlxalq təşkilatlar çərçivəsində də öz bəhrəsni verir və münasibətlər qarşılıqlı dəstəyə əsaslanır:

”Qırğızıstan-Azərbaycan İnkişaf Fondunun yaradılması qərarı mühüm əhəmiyyətə malikdir. Bu Fond inkişafa, investisiyaların cəlb edilməsi işinə, iş yerlərinin yaradılmasına və ticari-iqtisadi sahədə əməkdaşlığın genişləndirilməsi üçün daha çox ilkin şərtlərin formalaşdırılmasına xidmət edəcək. Qarşılıqlı maraqlara xidmət edən investisiyalar ölkələrmiz üçün yeni imkanlar yaradacaq. Məlum olduğu kimi Azərbaycan uzun illərdir ki, investor ölkədir. Azərbaycanın iki peyki - ”Azersky” və ”Azerspace-1” Qırğızıstandakı tərəfdaşlara xidmətlər göstərir. Həmçinin nəqliyyat-tranzit sahəsində Çin-Qırğızıstan-Özbəkistan-Xəzər yeni dəmir yolunun tikintisinə və istismarına başlamaqla əmtəə dövriyyəsinin artması və yüklərin daşınmasının ucuzlaşması üçün imkanlar yaranacaq. Çin-Qırğızıstan-Özbəkistan dəmir yolu Orta Dəhlizin bir hissəsi olacaq. İndiki mərhələdə nəqliyyat-tranzit sahəsində əməkdaşlığın vacibliyi xüsusilə vurğulanmalıdır. Qırğızıstana dövlət səfəri zamanı Prezident cənab İlham Əliyev açıq dənizlərə çıxışı olmamasına baxmayaraq Azərbaycanın mühüm nəqliyyat şəbəkəsi yaratdığını diqqətə çatdırdı. Ölkə başçımız vurğuladı ki, artıq fəaliyyət göstərən, eləcə də planlaşdırılan yeni nəqliyyat yolları kommunikasiyaları daha sıx birləşdirməyə imkan verəcək. Eyni zamanda, həm Cənub-Qərb, həm də Şimal-Qərb dəhlizlərinin potensialını genişləndirmək üçün imkanlar var. Bir halda ki, çox böyük potensiala malik Şimal-Cənub dəhlizi də Azərbaycandan keçir.”

**C.Osmanov qeyd edib ki, Azərbaycan-Qırğızıstan münasibətləri humanitar sahədə də uğurla inkişaf etdirilir:** ”Bakı və Bişkek qardaşlaşmış şəhərlərə çevriliblər. Azərbaycanın mədəniyyət paytaxtı Şuşa da Qırğızıstan şəhərləri ilə qardaşlaşacaq. Bişkekdə ən böyük məktəblərdən biri Azərbaycan dövlətinin banisi Ulu Öndər Heydər Əliyevin adını, digər məktəb isə dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin adını daşıyır. Qırğızıstan-Azərbaycan Dostluq Parkının açılması da iki ölkə arasında əlaqələrin yüksək səviyyəsindən, eləcə də xalqlarımızın qarşılıqlı hörmətindən xəbər verir. Hər iki ölkədə mədəniyyət günləri keçiriləcək ki, bu da həm ölkələrimizin, həm də xalqlarımızın müxtəlif səviyyələrdə daha çox, daha sıx təmaslar qurmasına imkan yaradacaq. Prezident cənab İlham Əliyevin Qırğızıstana dövlət səfəri zamanı imzalanan 9 adda rəsmi sənəd isə ölkələrimiz arasında münasibətlərin gələcək inkişafı üçün mühüm hüquqi baza rolunu oynayacaq”.

**İsmayıl**

# Sülh müqaviləsinin imzalanması şərtdir

## Yalnız bundan sonra Ankara-İrəvan münasibətləri normallaşma yoluna girə bilər



**Türkiyənin Xarici işlər naziri Mövlud Çavuşoğlu deyib ki, Prezident Rəcəb Tayyib Ərdoğanla Ermənistan Baş naziri Nikol Paşinyan xüsusi nümayəndələrin Türkiyə və Ermənistanda görüşməsinə dair razılığa gəliblər.**

Çavuşoğlu onu da bəyan edib ki, yaxın dönəmdə Ermənistanla hansısa saziş imzalanması planlaşdırılmır, sadəcə, münasibətlərin hansı səmtdə normallaşması müzakirə edilir. Nazir Azərbaycan və Türkiyənin bu mövzuda son dərəcə səmimi olduqlarını vurğulayıb.

**AĞ Partiya sədrinin müavini Əhəd Məmmədli ”Şərq”ə bildirib ki, Türkiyənin indiki halda Ermənistanla normal münasibət formalaşdırması Bakı-İrəvan danışıqlarından asılıdır. Partiya təmsilçisinin sözlərinə görə, Türkiyə rəsmiləri dəfələrlə bəyan ediblər ki, Ankara-İrəvan əlaqələrinin müzakirəsi Azərbaycanla paralel şəkildə aparılır:** ”Türkiyə də Ermənistan qarşısında tələb qoyur ki, İrəvan hökuməti Azərbaycanın ərazi bütövlüyünü tanımalı, Qarabağın ölkəmizin ayrılmaz hissəsi olduğunu rəsmi bəyan etməlidir. Sonrakı proses isə sərhədlərin demarkasiya və delimitasiyası, Zəngəzur dəhlizinin işə düşməsidir. Azərbaycan-Ermənistan arasında yekun sülh müqaviləsi imzalanandan sonra Ankara-İrəvan münasibətləri normallaşma yoluna girə bilər. Çavuşoğlunun ”yaxın zamanda saziş imzalanması planlaşdırılmır” mesajı da bunu göstərir. Ermənistan Türkiyə ilə kommunikasiyaların və sərhədlərin açılmasını, gediş-gəlişin normallaşmasını arzulayırsa, ilk növbədə rəsmi Bakının tələblərini yerinə yetirməlidir. Cənubi Qafqazda Türkiyə və Azərbaycan bir yerdə addımlayır və Ermənistana çıxış yolunu göstərirlər”.

**İsmayıl**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

İctimai və dövlət maraqlarının müdafiəsi



# Sənədlər azalacaq, vətəndaşlar razı qalacaq

## Elektron səhiyyə əhalinin, həm də səhiyyə işçilərinin işinin yüngülləşdirilməsinə xidmət edəcək

**"Azərbaycanda elektron səhiyyə ilə bağlı ümumi platformanın yaradılması müzakirə olunur". Bunu İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyətinin sədri Zaur Əliyev bildirib. TƏBİB-in tabeliyindəki tibb müəssisələrində elektronlaşma ilə bağlı çox böyük işlər görüldüyünü xatırladan sədr qeyd edib ki, xəstəxanalarda artıq bütün pasiyentlərin qeydiyyatı elektron formada aparılır. Onun sözlərinə görə, vətəndaşlar şəxsi kabinetə daxil olub aldıqları tibbi xidmətlərə dair məlumatı onlayn əldə edə bilirlər.**

Əlliyə yaxın tibb müəssisəsinin laboratoriyasının elektronlaşdırıldığını vurğulayan Z.Əliyev deyib ki, görülən işlərə rəğmən ümumi sistemdə fraqmentasiyalar mövcuddur: "Elektron səhiyyə ilə bağlı ölkədə ümumi bir platformanın yaradılması müzakirə olunur. Bu platformaya Səhiyyə Nazirliyi, TƏBİB, digər nazirliklərin tabeliyindəki tibb müəssisələrinin, həmçinin özəl tibb müəssisələrinin inteqrasiyası nəzərdən keçirilir". Elektron səhiyyə dövlətlə vətəndaş arasında əlaqənin möhkəmlənməsində hansı əhəmiyyətə malikdir?

Qeyd edək ki, Ümumdünya Səhiyyə Təşkilatı elektron səhiyyəni sadə şəkildə "səhiyyə sahəsində informasiya və kommunikasiya texnologiyalarının istifadəsi" kimi xarakterizə edir. Əlbəttə, səhiyyə sahəsində çalışan mütəxəssislər yaxın gələcəkdə texnologiya ilə əvəz edilməyəcək, amma informasiya texnologiyalarının tətbiqi həkimlərin gündəlik işlərini yüngülləşdirə bilər. Elektron səhiyyənin məqsədi, düzgün zamanda və düzgün yerdə xəstələrin sağlamlığı haqqında məlumatlara çıxış imkanı təmin etmək və bununla da səhiyyədə daha yaxşı nəticələrin əldə olunması üçün səhiyyə xidmətlərinin davamlılığını və keyfiyyətini təmin etməkdir. Məlumdur ki, səhiyyənin inkişafı, səhiyyə xidmətlərindən hər bir vətəndaşın istifadəsi, müayinə və müalicələrə əhalinin əlçatanlığı Azərbaycan dövlət siyasətinin prioritet sahələrindən birini təşkil edir. Son illərdə səhiyyənin inkişafı üçün atılan məqsədyönlü addımlar, o cümlədən icbari tibbi sığortanın artıq bütün ölkə üzrə tətbiq edilməsi ilk növbədə vətəndaşların sağlamlığına və səhiyyə xidmətlərinə əlçatanlığın təmin edilməsi məqsədi daşıyır. Elektron səhiyyə də həm vətəndaşların, həm də səhiyyə işçilərinin işinin yüngülləşdirilməsinə xidmət edəcək. Elektron səhiyyə sistemləri sayəsində səhiyyə sahəsində çalışan mütəxəssislər diqqətlərini blank doldurmaqdan çox xəstələrə ayırır, onlayn qeydiyyatın aktivləşdirilməsi ilə xəstələrin gözləmə, növbələrdə keçirdiyi vaxt qısalır, əczaçılar reseptləri asanlıqla təsdiqləyə və elektron resept (eP) xidmətlərindən istifadə etməklə inzibati protokol yükünü minimuma endirə bilirlər.

Əslində, elektron səhiyyə, müxtəlif səhiyyə müəssisələri arasında əməkdaşlığı asanlaşdıran və xəstələr ilə qarşılıqlı əlaqələrin yeni formalarını təmin edən, o cümlədən vacib məlumatların paylaşılmasına imkan verməklə səhiyyə xidmətləri göstərməyin yeni yollarını təqdim edir. Bunun əsasını Elektron sağlamlıq kartı (ESK) təşkil edir. Bu kart, bir-birini qarşılıqlı əvəz edən ESK xidmətləri vasitəsilə əlçatan vahid, hər bir şəxs üçün unikal ESK təmin etmək üçün, müxtəlif səhiyyə təminatçılarından toplanan tibbi qulluğa dair hadisə və məlumatlardan ibarətdir. Səhiyyə sistemində çalışan mütəxəssislər və xəstələrin vaxtına qənaət etməklə sənədlərin mübadiləsi və məlumatların yaradılması, saxlanılması və paylaşılması ilə kliniki prosedurların kopyalanmasının qarşısını almağa imkan verən elektron səhiyyəyə dair texnoloji həllər çoxlu sayda faydaları ilə seçilir. İnsanların sağlamlığına dair məlumatların əlçatan olması gələcək problemləri müəyyənləşdirməklə xəstəliklərin qarşısının alınmasına dair siyasətləri dəstəkləyir, o cümlədən insanların sağlamlığına dair məlumatları təhlil edir və innovasiyalara kömək edir. Bu sistem həm də şəffaflığı təşviq edir, çünki səhiyyə sistemi iştirakçılarının fəaliyyətləri qeydə alınır və müvafiq proseslərə riayət olunmanı təmin etmək üçün təhlükəsizlik yoxlamaları tətbiq edilir.

Qeyd edək ki, millət vəkili Razi Nurullayev isə Milli Məclisin dünən keçirilən iclasında səhiyyə sahəsində elektron ödəmə sisteminin tətbiqini təklif edib. Deputat bildirib ki, müəyyən xəstəliyi olan vətəndaşlar televiziya kanallarındakı proqramlara çıxır, müalicə üçün maddi yardıma ehtiyacı olduqlarının deyirlər. Vətəndaşlar millət vəkillərinə də müraciət edərək efirə çıxmalarına yardım edilməsini istəyirlər: "Təklif edirəm ki, ASAN xidmətin, digər dövlət qurumunun, yaxud ictimai təşkilatın nəzdində elektron ödəmə tətbiqi və internet resursu yaradılsın. Belə təcrübəmiz də var. Məsələn, "Yaşat" Fondu. Biz 40 milyona yaxın millətik. Xalqımız da yardımsevərdir. Kömək etmək istəyən çoxdur, lakin "amma"sı var. İnsanlar bilmək istəyir ki, verdikləri vəsait doğrudan da konkret xəstəyə xərclənirmi? İnsanlar bilmək istəyir ki, sistem şəffafdırmı? İnsanlar istəyir ki, asan yollarla, oturduğu yerdə, əlində və evində olan mümkün vasitələrlə pul köçürsün və nəticəsini izləyə bilsin. Buna görə də vahid ödəniş sistemi olan və vahid mərkəzdən idarə edilən internet ödəniş sisteminin və tətbiqinin yaradılmasını təklif edirəm. Bu tətbiq elə hazırlansın ki, hər bir vətəndaş əlində və evində olan vasitələrlə asan şəkildə pul köçürə bilsin. Hər kəs bir manat köçürsə, on milyonlarla vəsait toplanar və yüzlərlə təkrarlanan müraciətləri həll edə bilərik. Biz bu tətbiqlə insanlarda bir manat köçürmək mədəniyyəti və o bir manatın insan həyatını xilas etməsi inamını yarada bilərik. Telefon konturundan, telefon nömrəsində olan pul vəsaitindən istifadə etməklə hər bir kəsin əlçatanlığını təmin etmək olar. İnanıram ki, tez bir zamanda bu xidməti yarada bilsək, ölkədə minlərlə xəstəni xaricdə müalicəyə göndərə bilərik. Həm də dövlətin üzərində olan yükü də azaltmış olarıq".

**"Şərq"ə danışan Təcili Tibbi Yardım Stansiyasının həkimi, terapevt Şahvələd Məmmədov qeyd etdi ki, qaldırılan məsələ aktualdır:**

### *Düzgün zamanda və düzgün yerdə xəstələrin sağlamlığı haqqında məlumatlara çıxış imkanı təmin olunacaq*

- Həqiqətən də bu gün müalicəyə ehtiyacı olan, lakin maddi imkansızlıq səbəbindən lazımi müalicə ala bilməyən vətəndaşlarımız var. Burada söhbət böyük məbləğdə müalicə xərclərindən gedir. Elə xəstəliklər var ki, həqiqətən də, onların müalicəsi üçün külli miqdarda vəsait tələb olunur, bəzi xəstəliklərin müalicəsi xarici ölkələrdə daha effektiv aparılır, lakin vətəndaşların heç də hamısının buna maddi imkanı çatmır. Milli Məclisin Səhiyyə komitəsinin sədri, professor Əhliman Əmiraslanov da bu barədə danışmışdı, onkoloji xəstəliklərin icbari tibbi sığorta paketinə daxil edilməsinin vacibliyini bildirmişdi. Bilirik ki, onkoloji xəstəliklərin müalicəsi böyük vəsait tələb edir və bu, hər vətəndaş üçün əlçatan deyil. Başqa, ağır xəstəliklər də var ki, onların da müalicəsinə böyük vəsaitlər tələb olunur, ya da müalicəsi xarici ölkələrdə mümkündür. Bəlı, teleproqramlara çıxan, efir vasitəsilə insanlara üz tutub müalicə almaq üçün yardım istəyənlər olur. Amma millət vəkilinin də dediyi kimi, proses şəffaf olsun deyə, toplanan vəsaitin təyinatı üzrə xərcləndiyindən əminlik olsun deyə, elektron ödəmə sisteminin tətbiqi müsbət irəliləyiş olardı. Bir halda ki, elektron səhiyyəyə inteqrasiya edirik, maliyyə vəsaitlərinin də elektron ödəmə sisteminə keçirilməsi səhiyyənin elektronlaşdırılmasına təkan verə bilər. Dövlətin də yükü azalar. Bir sıra xəstəliklər icbari tibbi sığorta paketinə daxil edilsə də, bu sistem ölkədə hələ yeni-yeni tətbiq edildiyindən problemlər qaçılmaz olacaq. İcbari tibbi sığortanın tam gücüylə çalışması üçün icbari tibbi sığortaya ayrılan vəsaitlərin miqdarı artmalıdır, bu da zamanla mümkün olacaq. Hələliksə, vətəndaşlarımız əziyyət çəkməsin deyə, dövlətə dəstək olmaq lazımdır. Bu da elektron ödəmə sistemi vasitəsilə mümkün olar.

**Məlahət Rzayeva**

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub**



# Putinin açıqlaması iqtisadi əsaslara söykənmir

## Rusiya MDB ölkələrinə "gəlin, milli valyuta ilə alver edək" deyir, bu, mümkünsüzdür

**MDB ölkələri arasında qarşılıqlı hesablaşmaların milli valyutalara daha intensiv keçidi onların ticarət dövriyyəsinin artmasına kömək edəcək. Bunu Rusiya Prezidenti Vladimir Putin MDB dövlət başçılarının qeyri-rəsmi görüşündə çıxış edərkən bildirib.**

Rusiya prezidenti qeyd edib ki, bu gün MDB Dövlət Başçıları Şurasının gələn həftə Astanada keçiriləcək tam formatlı illik iclasına qədər "saatları sinxronlaşdırmaq" imkanı var. "Qazaxıstanın sədrliyi öz gündəliyinə siyasət, iqtisadiyyat və humanitar sahədə inteqrasiya əməkdaşlığının həqiqətən mühüm mövzularını təqdim edir. Həmişə olduğu kimi, təsdiqlənmə üçün birgə sənədlər paketi hazırlanır. Təbii ki, bu görüşdə və sammitdə biz Astanada MDB çərçivəsində ticarət və investisiya tərəfdaşlığının daha da inkişafına üstünlük verəcəyik, ikitərəfli və çoxtərəfli əməkdaşlıq əlaqələrinin qurulması yolu ilə bütün iqtisadiyyatlarımızın sabitliyini artırmaq, texnoloji suverenliyin təmin edilməsi üçün birgə işi necə gücləndirmək barədə düşünəcəyik", - Putin bildirib. Rusiya lideri bu kontekstdə dövlətlər arasında iqtisadi əməkdaşlığın davamlı olaraq genişləndiyini, ötən il Rusiyanın MDB ölkələri ilə ticarət dövriyyəsinin 30 faizdən çox - 96 milyard dollara qədər artdığını, cari ilin birinci yarısında isə daha 7 faiz artdığını qeyd edib. "Əminəm ki, Birlik ölkələri arasında qarşılıqlı hesablaşmalarda milli valyutalara daha sürətli keçid bu cür müsbət tendensiyaları inkişaf etdirəcək. Əslində, uzun illərdir ki, istənilən siyasi vəziyyətdə bunu edirik və bu, heç bir halda digər amillərlə bağlı deyil", - dövlət başçısı qeyd edib. Putinin sözlərinə görə, bu, Birlik dövlətlərinin maliyyə suverenliyini gücləndirməyə, daxili kapital bazarlarını inkişaf etdirməyə və regional iqtisadi inteqrasiyanı dərinləşdirməyə kömək edəcək.

**İqtisadçı Fuad İbrahimov "Şərq"ə açıqlamasında V.Putinin milli valyutalarla bağlı açıqlamasının iqtisadi əsaslara söykənmədiyini bildirdi:**

- Bu, çoxşaxəli və dərin mövzudur. Hər bir ölkənin milli valyutasının dəyəri - məzənnəsi, ölçü vahidi var. İstənilən ölkələr arasında hər hansı ticarət aparılırsa, ilk növbədə o ölkələrin milli valyutasının dəyəri müəyyənləşməlidir. Məzənnə müəyyənləşmədən necə ticarət aparmaq, alış-veriş etmək olar? Bu gün bütün dünyada etalon valyuta ABŞ dollarıdır. Qızılın ölçü vahidi də dollarla təyin edilir. Dünyada tətbiq edilmiş beynəlxalq ödəniş sistemi "VİSAcart" və "Maestrocart"dır. Rusiya hazırda hər iki beynəlxalq ödəniş sistemindən təcrid edilib. Rusiyanın bütün bank sektoru çökmüş vəziyyətdədir. Rusiya özü "MİR" ödəniş sistemini yaradıb, lakin bu yalnız Rusiya ərazisində tətbiq edilir, onun kənara çıxmaq imkanları sıfırdır. Belə vəziyyətdə Rusiya MDB ölkələrinə "gəlin, milli valyuta ilə alver edək", deyir. Bu, mümkünsüz bir işdir. Etmək olar, lakin mikroiqtisadi cəhətdən. Bu da olacaq, bildiyiniz barter üsulu; sən mənə qaz ver, mən sənə neft, metal, boru, taxta... Bir neçə ölkənin milli valyuta ilə ticarət aparması heç vaxt makro-iqtisadi sahəyə inteqrasiya edə bilməz. Milli valyuta ilə ticarət yalnız 1-2 dövlətin öz arasında, "məndən-sənə, səndən-mənə" sistemi olacaq. Burda hansı "maliyyə suverenliyini gücləndirmək"dən, "daxili kapital bazarlarını inkişaf etdirmək"dən söhbət gedə bilər? Bu gün ABŞ valyutasından kənar hansısa ticarət dövriyyəsi təşkil etmək mümkün deyil. Vaxt vardı, sovet rublu SSRİ-dən kənarda - Avropa və bəzi başqa ölkələrdə keçərli idi. Milli valyutalarla ticarət dövriyyəsinə yenə də SSRİ dağılan zaman başlasaydılar, bəlkə nəsə etmək olardı. Lakin indi çox gecdir. Heç bir iqtisadçı belə əsassız fikir söyləməz. İdeoloji baxımdan, nəzəri cəhətdən bəlkə də mümkündür, amma bunu tətbiq etmək mümkün deyil. Bir zamanlar Türkiyə ilə Rusiya arasında da milli valyutalarla ticarət əlaqələri yaratmaq fikirləri səsləndi, fikir, istək olaraq da qaldı. Belə bir sistem istəyirlərsə, əvvəlcə yaratsınlar, sonra tətbiqinə başlasınlar. Görək, alınırmı? Rusiyanın dünyadan təcrid olunması getdikcə genişlənir deyə, V.Putin belə bir fikir ortaya atır, amma onun iqtisadi əsaslara söykənmədiyini əslində, MDB başçıları da çox gözəl bilir.

**Məlahət Rzayeva**

# Türkiyə dezinformasiyaya qarşı mübarizəyə başladı

## Azərbaycan da feyk xəbər axınının qarşısını almaq üçün hərəkətə keçməlidir

**Sosial şəbəkələrin informasiya daşıyıcılığında önə keçdiyi indiki mərhələdə feyk xəbər axını getdikcə güclənməkdə, dövlətlərin, insanların həyatına sürətlə daxil olmaqdadır. Müasir dünyamızda sıravi insanlardan tutmuş, dövlət rəhbərlərinə qədər - çox geniş təbəqələr yalan xəbərlərdən əziyyət çəkməkdədir.**




***"Çox istərdim ki, analoji addım ölkəmizdə də atılsın, xüsusən "facebook"un Azərbaycanda ofisi və ya nümayəndəliyi açılsın"***

Yalan xəbərlə mübarizə hazırda bütün beynəlxalq təşkilatların gündəmindədir. İndiyədək elə bir model tapılmayıb ki, onu tətbiq etməklə yalan xəbərlərin yayılmasının qarşısı əhəmiyyətli şəkildə alına bilsin.

Qeyd edək ki, Türkiyə parlamenti dezinformasiya ilə mübarizə haqqında qanun layihəsini qəbul edib.

Türkiyə Cəza Məcəlləsinə edilən dəyişikliyə görə, sosial şəbəkələrdə yalan xəbərlərin yayılması cinayət sayılacaq.

Bilə-bilə yalan məlumat yayma 1 ildən 3 ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılacaq. Bu cinayət təşkilati fəaliyyət çərçivəsində törədildikdə, cəza ikiqat artırılır.

Ekspertlərin fikrincə, Azərbaycanda da sosial şəbəkələrə mütləq mənada nəzarət olmalıdır. Sosial şəbəkələrdə çoxsaylı yalan və şantaj, hətta kəşfiyyat xarakterli informasiyaları da yayırlar. Ona görə, Azərbaycanda da sosial şəbəkələrin, internet kanalların fəaliyyəti nəzarətə alınmalıdır.

**Azxeber.com" saytının baş redaktoru, Mətbuat Şurasının İdarə Heyətinin üzvü Hacıbəy Heydərlinin "Şərq"ə açıqlamasına görə, Türkiyədə qəbul edilən bu qanun sosial mediadakı hərc-mərcliyin, özbaşınalığın, şər-böhtan kampaniyasının qarşısını almış olacaq:** "Son zamanlar bu kimi informasiyalar çox geniş vüsət almağa başlayıb və mənbəyi, mənşəyi məlum olmayan profillərdən yayılan saxta xəbərlər cəmiyyətdə çaşqınlığa səbəb olur. Çox təəssüf ki, yuxarıda sadaladığım hallara ölkəmizdə də rast gəlinir.

Azərbaycanda da bəzi saytlar və sosial şəbəkə hesabları tərəfindən yalan, şantaj və dezinformasiya xarakterli, sifarişli materiallarla qarşılaşırıq. Türkiyədə bu kimi dezinformasiyalar "tvitter" sosial şəbəkəsində yayılırsa, Azərbaycanda daha çox "facebook" və "tiktok" bu məsələdə aktualdır. Bəzi səhifələr var ki, insanların adından yalan xəbər paylaşmaqla ixtisaslaşıb, bu istiqamətdə fəaliyyəti ilə məşhurlaşıb. İnsanlar da çox vaxt xəbərin mənbəyini axtarmadan, araşdırmadan həmin yalan xəbərlərə inanırlar, bu da cəmiyyətdə çaşqınlığa səbəb olur. Adından yalan məlumat yayılan şəxslərin işgüzar nüfuzuna da xələl gəlir, hüquqları pozulur".

Sosial şəbəkədən istifadə edən hər bir kəs unutmamalıdır ki, o həm də informasiya daşıyıcısıdır, onun paylaşdığı hansısa yanlış məlumat çox ciddi böhrana, qalmaqala, xaosa səbəb ola bilər. Faktdır ki, bu gün insanlara qarşı şər, böhtan kampaniyası, insanların şərəf və ləyaqətinin alçaldılması, işgüzar nüfuzuna xələl gətirilməsi hallarına ən çox sosial mediada rast gəlinir. Düşünürəm ki, ölkəmizdə bu istiqamətdə maarifləndirici tədbirlər baş tutmalı və insanlara qanunun tələbləri aşılanmalıdır. Çünki hazırkı dönəmdə istənilən bir şəxsi qaralamaq, onu nüfuzdan salmaq çox asandır. Burada daha bir məqam isə ondan ibarətdir ki, burada daha bir diqqəçəkən məqam isə ondan ibarətdir ki, cəmiyyətdə xaos, panika, təşviş yaradan məlumatlar paylaşan şəxslər çox vaxt "fake" profildən istifadə edir və bu yolla kimliyini gizlətməyə çalışırlar".

**H.Heydərlinin fikrincə, bu tip məlumatların qarşısını almaq məqsədilə Türkiyədə sosial şəbəkələrin ofisinin açılması tələb kimi qoyulub. Çünki biz çox vaxt görürük ki, "facebook", "tvitter", "instagram" kimi sosial şəbəkələr rəsmi ofisi və ya nümayəndəliyi olmayan ölkələrdən gələn şikayətlərə etinasız yaraşır, onların müraciətlərini görməzdən gəlir:** "Bu da bir çox hallarda dezinformasiyaların, saxta xəbərlərin daha geniş arenaya yayılmasına şərait yaradır. Sosial şəbəkələrin Türkiyədə rəsmi ofisi açılandan sonra "fake" və ya "trol" profilləri tapmaq da asanlaşacaq və bununla sosial mediadakı xaosun qarşısı alınmış olacaq. Çox istərdim ki, analoji addım ölkəmizdə də atılsın, xüsusən "facebook"un Azərbaycanda ofisi və ya nümayəndəliyi açılsın. Biz bu yollla dezinformasiyaların, saxta xəbərlərin qarşısını ala bilərik. Azərbaycanın qanunları çərçivəsində fəaliyyət göstərən nümayəndəlik şikayətlərə də etinasız yanaşmaz. Bundan isə qazanan cəmiyyətimiz olar".

**Şəymən Bayramova**

# Qarabağ qibləgahımızdır

## Vətən, torpaq uğrunda canından keçənlər heç vaxt unudulmayacaq!



Pərvanə Əliyeva,
Azərbaycan Dövlət Pedaqoji Universitetinin nəzdində ADPK-nin pedaqogika-psixologiya kafedrasının müəllimi

**Müzəffər Ali Baş Komandan, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 27 sentyabr 2021-ci ildə Anım Günü ilə əlaqədar xalqa ünvanladığı müraciətində deyib: "İkinci Qarabağ müharibəsi bizim şanlı tariximizdir. Bu Qələbə tarixdə əbədi qalacaq.**

Azərbaycan Silahlı Qüvvələri 44 gün ərzində düşmən ordusunu məhv edərək öz ərazi bütövlüyünü bərpa etdi. Mən dəfələrlə demişdim ki, Azərbaycan xalqı heç vaxt işğalla barışmayacaq. Dəfələrlə demişdim ki, nəyin bahasına olursa-olsun biz öz torpaqlarımızı geri qaytaracağıq. Dəfələrlə demişdim ki, düşmən öz xoşu ilə torpaqlarımızdan çıxmasa, biz onu torpaqlarımızdan qovacağıq və belə də oldu. ...Biz milli ləyaqətimizi bərpa etdik. Bu gün Azərbaycan xalqı müzəffər xalq kimi yaşayır. Bu gün Azərbaycan dövləti qalib dövlət kimi yaşayır. Biz bundan sonra müzəffər xalq və qalib dövlət kimi əbədi yaşayacağıq".

2020-ci il 27 sentyabr tarixinin torpaqlarımız işğaldan qurtuluşu yolunda canını fəda etmiş qəhrəman hərbçilərimizin və Ermənistanın müharibə cinayətlərinin qurbanlarına çevrilmiş mülki vətəndaşlarımızın əziz xatirəsinin anıldığı gün kimi əbədiləşdirilməsi qazandığımız böyük Zəfərin mahiyyətinin ictimai düşüncədə adekvat qiymətləndirilməsinin növbəti təsdiqi olub. Canlarını respublikamızın ərazi bütövlüyünün bərpa edilməsi uğrunda qurban vermiş Vətən müharibəsi şəhidlərinin əziz xatirəsi ilə bağlı tədbirlər bununla yekunlaşmır. Belə ki, Prezidentin Sərəncamına əsasən, hər il sentyabrın 27-i saat 12:00-da Vətən müharibəsi şəhidlərinin xatirəsi bir dəqiqəlik sükutla yad edilir.

Bu müharibə Azərbaycanın tarixinə qızıl hərflərlə yazıldı, dünya hərb tarixində isə yeni səhifə açdı. Torpaqlarımız düşmən tapdağından azad oldu, haqq-ədalət bərpa edildi. Ermənistanın ölkəmizə qarşı 2020-ci il sentyabrın 27-dən başlayan növbəti hərbi təcavüzünə cavab olaraq, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi altında işğal altındakı torpaqlarımızın azad edilməsi məqsədilə Vətən müharibəsinə başladı. Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyü uğrunda gedən mübarizədə rəşadət göstərən əsgər və zabitlərimiz, arxa cəbhədə çalışan mülki insanlarımız, bütövlükdə xalqımız əzm və iradə, bir yumruq kimi birlik və həmrəylik nümayiş etdirərək, düşmənə sarsıdıcı zərbələr endirdi.

30 ilə yaxın davam edən ədalətsizliyə son qoyan Qalib Azərbaycan əsgərinin döyüşlərdə göstərdiyi şücaət və qəhrəmanlıqlar hər birimizin qəlbində qürur hissi alovlandırır. Qalib sərkərdə, Müzəffər Ali Baş Komandan İlham Əliyevin fədakarlığı, qətiyyəti, dəmir yumruğu və rəşadətli ordumuzun qəhrəmanlığı sayəsində Ermənistan silahlı qüvvələrinin 30 ildə möhkəmləndirdikləri istehkamlar darmadağın edildi. Dövlət, xalq və ordu birliyi çox qısa bir vaxtda Azərbaycanın ərazi bütövlüyünü təmin etdi. Düşməni diz çökdürən igid oğullar öz qanları bahasına xalqımıza Zəfər bayramı yaşatdılar. Bu gün vətən uğrunda şəhid olan bütün oğul və qızlarımızın xatirəsi dərin ehtiram və hörmətlə yad edilir.



Bu Zəfərin əldə olunmasında Müzəffər Ali Baş Komandanın qətiyyətli mövqeyi, Şanlı Azərbaycan əsgərinin qəhrəmanlığı və Qalib xalqın əməyi danılmazdır. Onun üçün də millət olaraq bizlər kiçikdən böyüyə hər birimiz qüdrətli Azərbaycan dövlətinə, Müzəffər Ali Baş Komandana və Şanlı Ordumuza borcluyuq. Bu bizim şərəfli tariximizə qızıl hərflərlə yazılmış qəhrəmanlıq və ləyaqət dastanıdır. Müharibədə qazanılan Zəfər xalqımıza bundan sonra qalib kimi yaşamaq, qarşıya qoyduğu bütün hədəflərə yetişmək imkanı yaradıb. Bu gün də "Qarabağ Azərbaycandır və nida" şüarı Azərbaycanın qələbəsinin rəmzinə çevrilib.

Qarabağ bizim müqəddəs qibləgahımız vətən torpağımızdır. Dövlətimiz tərəfindən işğaldan azad edilmiş ərazilərimizdə infrastruktur layihələri davamlı şəkildə icra olunur. Erməni vəhşiliyinin qurbanı olan şəhərlərimiz, qəsəbələrimiz və kəndlərimiz əvvəlki görkəmindən də gözəl görünüşə malik olacaqdır. Zəngilan rayonunda "Ağıllı kənd" konsepsiyası əsasında yenidən salınmış Ağalı kəndinə keçmiş məcburi köçkünlərin qayıdışı davam edir. Bu il "Ağıllı kənd" konsepsiyasına uyğun qurulan Ağalı kəndinə ilk dəfə iyulun 19-da 201 nəfərdən ibarət 41, ikinci mərhələdə 125 nəfər ibarət 25 ailə, sentyabrın 10-da Abşeron rayonunun Masazır kəndindəki "Zəngilan şəhərciyi"ndən yola salınan 13 ailədən ibarət növbəti karvan Ağalı kəndinə köç etdi. Ağalı kəndinə əhalinin köçürülməsi Böyük Qayıdışın ilk qədəmləridir.

Bu gün ata-baba yurdumuzda azan səsi eşidilir, şanlı üçrəngli bayrağımız dalğalanır. Qarabağın qəlbi Şuşanın erməni tapdağından xilas edilməsi isə bu müqəddəs savaşın zirvəsi, ən böyük hadisəsi, Azərbaycanın mühüm strateji qələbəsi oldu.

# Bahalı interneti yaradan bütün amillər nəzarətdə saxlanmalıdır

## Ölkə üzrə vahid bir telekommunikasiya qurumu yaradılmalıdır



**Bir müddət öncə "Aztelekom" və "Baktelecom" yüksək internet sürətlərinə keçidlə bağlı GPON texnologiya əsasında fiber optik internetin tariflərini qaldırıb. Daha yüksək sürətlərə uyğun da nisbətən yüksək tariflər təsdiqlənib.**

Hər iki operator GPON istifadəçisi üçün bahalı, 110 manat civarında "Nokia" və ya "Huawei" fiber optik modemini təklif edir.

"Multimedia" İnformasiya Sistemləri Texnologiyaları Mərkəzinin direktoru Osman Gündüz hesab edir ki, operatorların özləri bu modemi daha baha qiymətə alırlar. Bu texnologiya ilə internetə qoşulan istifadəçinin digər modemi seçmək imkanı yoxdur. Bu cür bahalı modemləri operatorlar özləri vətəndaşlara təqdim edir: "Aztelekom" və "Baktelecom" əsasən "Huawei" və "NOKİA" texnologiyalarından istifadə edir. RİNN-in indiki rəhbərliyindən xeyli əvvəl bu şirkətlərin adı çəkilən operatorlarla müqavilələri var. Həmin illərdə bu şirkətlərə milyonlarla vəsait ödənərək avadanlıq və texnologiyalar alınıb. Bu müqavilələrə görə operatorlar digər texnologiyalardan istifadə edə bilməzlər.

Yəni nə operatorlar, nə də istifadəçi eyni xüsusiyyətli, 30-40 manat civarında olan fiber optik modemdən istifadə etsə bu şəbəkədən internet əldə edə bilməyəcək.

Düşünürəm ki, bu, yolverilməzdir. Belə çıxır ki, adı çəkilən şirkətlərlə bağlanan müqavilələr antiinhisar qanunvericiliyə ziddir. Maraqlıdır ki, yeni rəhbərlik də bu müqavilələri analiz etmədən, necə deyərlər, "baş ağrıtmadan" elə onlar əsasında əməkdaşlığı davam etdirirlər. Fikrimcə, bunlar yenidən nəzərdən keçirilməlidir.

Haqsız rəqabət mühiti, bahalı interneti yaradan bütün amillər Antiinhisar Dövlət Xidməti tərəfindən nəzərdə saxlanılmalıdır".

O.Gündüzün sözlərinə görə, Antiinhisar Dövlət Xidmətinin "Bir bina bir provayderindir" məsələsinə dərhal reaksiya verməsi təqdirəlayiqdir. Bununla belə göründüyü kimi sektorda bir çox sahələrdə problemlər qalmaqdadır: "Dünyanın hər yerində ölkə üzrə vahid bir telekommunikasiya qurumu var. Yəni dünyanın heç yerində "Ankara telecom", "Tbilisi telecom" kimi qurumlar yoxdur.

Yalnız bizdə "Aztelekom"la yanaşı "Baktelekom" da var. Görünür ki, keçmişdə kimisə vəzifəyə qoymaq üçün, yaxud da daha gəlirli olanı ayırmaq üçün də vahid formada olan qurumu iki yerə parçalayıblar. Əlbəttə, hər ikisi təbii inhisarçıdır.

Amma bunların vahid bir qurumda birləşdirilməsi, gücləndirilməsi və gələcəkdə özəlləşdirilməyə də vahid bir formada çıxarılması daha doğru addım olardı.

Fikrimcə, Antiinhisarın bu məsələləri də nəzərə alması doğru olardı".

**Şəymən**

# Şərtlər bizə uyğun deyil

## Maliyyə amnistiyası Azərbaycanda effekt verməz

**Milli Məclisin iclasında Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi ikinci oxunuşda müzakirəyə çıxarılıb. Layihə ilə bağlı fikirlərini bildirən deputat Vahid Əhmədov Azərbaycanda maliyyə amnistiyasının verilməsinə ehtiyac olduğunu deyib.**

Onun sözlərinə görə, vaxtilə qanunsuz yollarla külli miqdarda vəsait əldə edənlər həmin vəsaitlərin böyük hissəsini xaricə çıxarıb. O vəsaitlərin ölkədə qalması, yaxud ölkəmizin inkişafına sərf olunması üçün iqtisadi amnistiyaya ehtiyac var.

Deputat həmçinin qeyd edib ki, ölkədə 10 il bundan əvvəl qanun qəbul olunsa da, bugünədək gəlir deklarasiyası tətbiq olunmur. Çünki normativ sənədlər işlənib hazırlanmayıb.

Birinci vitse-spiker Əli Hüseynli isə bildirib ki, maliyyə amnistiyası məsələsini Vahid müəllim əvvəllər də qaldırıb: "Vahid müəllim, o ölkələr maliyyə amnistiyası elan ediblər ki, orda iqtisadiyyat tam kriminallaşıb. Mən birmənalı şəkildə bildirirəm ki, bizim iqtisadiyyatımız tam sağlamlaşmağa doğru gedir".



Gəlir deklarasiyasına gəldikdə, Ə.Hüseynli dedi ki, qanunvericilik baxımından doğru yanaşmadır. Amma bir çox ölkələr gəlir deklarasiyası versə də, korrupsiyanın səviyyəsi orda yüksəkdir. Birinci vitse-spiker dedi ki, bu qanunu qəbul etməklə qanunsuz pul köçürmələrinin qarşısını ciddi şəkildə almış olacağıq.

***Maraqlıdır, maliyyə amnistiyasının Azərbaycanda qəbulu nə nəticə verəcək?***

**İqtisadçı-ekspert Əyyub Kərimlinin "Şərq"ə açıqlamasına görə, iqtisadi cəhətdən inkişaf etmiş bir sıra ölkələrdə bu təcrübədən istifadə edilib.** Lakin hamısında maliyyə amnistiyası gözlənildiyi kimi müsbət nəticə verməyib. Təbii ki, effekt əldə edən ölkələr də olub.

Azərbaycana gəldikdə isə iqtisadçı deyib ki, maliyyə amnistiyasının verilməsi müsbət hadisə olar. Və bunun həyata keçirilməsi kölgə iqtisadiyyatının aradan qaldırılması üçün müəyyən fayda verə bilər. Maliyyə amnistiyası adətən iqtisadi aktivliyin bərpa olunmasına və investisiya qoyuluşuna müsbət təsir göstərir: "Azərbaycan reallığında bu mümkün olacaqmı? Bax, bu məsələ sual altındadır. Hesab edirəm ki, bunun üçün də müəyyən şərtlər olmalıdır. Xaricdəki vəsaitlərin leqallaşdırılması üçün həmin vəsaitlərin ölkə iqtisadiyyatında istifadə olunması tələbi qoyulmalıdır. Məsələn, əlavə iş yerlərinin yaradılması, kənd təsərrüfatının inkişafına sərmayə qoyuluşunda, işğaldan azad olunan rayonlarımızın bərpasında bilavasitə həmin vəsaitlərdən istifadəsinə dair zəmanət olmalıdır. Əks halda xaricdəki vəsaitlərin leqallaşdırılması sadəcə çirkli pulların yuyulması kimi mənfi əhəmiyyət daşıyacaq".

**Şəymən**

# Yazıçı "RAHAT"sız oldu

## Konfetin içindən qurd çıxdı



**Yazıçı Səfər Alışarlı "Facebook" hesabında içindən qurd çıxmış konfet fotoları paylaşıb. Yazıçı iddia edib ki, həmin konfetləri "Rahat" supermarketlər şəbəkəsindən alıb:** "Moskvanın Babayevski fabrikinin adından buraxılmış, şokolada oxşar saxta məhsuldur. İçində də qurdlar var. Ömrümdə belə şeyə rast gəlməmişəm. Bu ölkədə Qida Təhlükəsizliyi Agentliyi varsa, hara baxır?".

**Məsələyə münasibət bildirən qida təhlükəsizliyi üzrə ekspert Elsevər Fərzəliyev "Şərq"ə deyib ki, burada məsuliyyət AQTA-dan daha çox həmin mağaza rəhbərliyinin üzərinə düşür:** "Buna daha çox mağazalara məhsul gətirən rəhbər şəxslər diqqət etməlidirlər. Bəzən mağazalara satılmayan məhsuldan çox gətirilir, sonra da zərərə uğramamaq üçün həmin məhsullar satışa çıxarılır.

Nəticədə alıcılar da belə qurdlu məhsullarla qarşılaşır. Şirkətin öz rəhbərliyi bu işə xüsusi diqqət ayırmalıdır.

Rəhbərlik öz məhsulunu ticarət şəbəkəsinə çıxarırsa, alıcı o məhsulda nöqsan tapırsa, bu, birinci növbədə onun problemi olmalıdır. Nəzarətçi orqan olaraq AQTA mütəmadi olaraq monitorinqlər keçirir. Nöqsanların qarşısını almağa çalışır.

Bu baxımdan adıçəkilən qurumun fəaliyyətini yüksək dəyərləndirirəm. Sadəcə olaraq tövsiyə edirəm ki, onlar apardığı monitorinqlərin sayını bir az artırsınlar".

**Günəş Mərd**

# Uşaqlar səhlənkarlığın qurbanı olurlar

## Həkimlərin çəkinəcəyi cəza sistemi qurulmalıdır

**"Azərbaycanda körpələrin həkim səhlənkarlığının qurbanına çevrilməsi hadisələri çoxalır.**

Mənim də ilk övladım həkim səhvi ucbatından tələf olub. Sonrakı analizlər nəticəsində həkimin savadsızlığı üzə çıxdı".



**Bunu "Şərq"ə açıqlamasında Sağlam Cəmiyyət Hərəkatının rəhbəri, sosioloq Elçin Bayramlı söyləyib.**

O bildirib ki, məsələnin kökü çox dərindir: "Əvvəl də, indi də imkanlı ailələrin övladları universitet illərini əyləncə ilə keçirib axırda diplom alırlar. Tanışlıqla, rüşvətlə müvafiq yerlərə işə düzəlirlər. Savadsız həkimlər ən məsuliyyətli işlərdə çalışanda sonu faciə ilə bitir.

Artıq həkimlər pasiyentlərinə "müştəri" gözü ilə baxır. Maddi məsələ önə keçib. Onları daha çox pul qazanmaq maraqlandırır.

Cəzasızlıq mühitidir. Belə hadisələr yaşananda həkimlər cəzalandırılmır. Halbuki, bütün ölkələrdə sərt cəzalar verilir, kompensasiyalar ödənilir, həkim işdən qovulur və s.

Sadaladığım səbəblər bu kimi halların yaşanmasına şərait yaradır".

**E.Bayramlının qənaətincə, yaxşı həkimlər bahalı xidmət göstərir, sadə xalqın isə buna imkanı çatmır:** "Ona görə də məcburən təcrübə və savad cəhətdən "ucuz" qəssabların - həkimlərin əlinə düşürlər. İcbari Tibbi Sığorta sistemi problemlərin aradan qalxmasından ötrü vəziyyəti tənzimləməlidir. Həkimlərin çəkinəcəyi cəza sistemi qurulmalıdır. Belə hadisələrin sosial şəbəkə, media vasitəsilə işıqlandırılması yaxşı haldır.

Faktlar açıqlanandan məsələ diqqət çəkməyə başlayır. Həkimlərə qarşı tədbirlər görülməlidir. Valideyn də hər həkimə güvənməməlidir. Elə mühitdəyik ki, hərə öz başına çarə qılmalıdır.

Ümumiyyətlə, səhiyyə sistemində hərtərəfli problemlər mövcuddur".

*Qeyd edək ki, Şirvanda körpə həkim səhlənkarlığının qurbanı olub. Körpənin ölümü ilə bağlı cinayət işi başlanılıb, mama-ginekoloq barəsində iltizam qətimkan tədbiri seçilib. Aparılmış araşdırmalarla müəyyən edilib ki, həmin xəstəxanada mama-ginekoloq işləyən Fərqanə Qədirova doğuş prosesinə rəhbərlik etdiyi zaman səhlənkarlıq edib öz işinə vicdansız və laqeyd münasibət göstərməklə doğuşun təbii yolla yekunlaşdırılmasını qüsurla başa çatdırması nəticəsində yeni doğulmuş körpə ölüb.*

**Aygün Tahir**

**Elan**

Bəşirova Yaqut Rüstəm qızına məxsus 0001932216 nömrəli iş vəsiqəsi itdiyi üçün etibarsız sayılır.


Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Kənan Eynuroğlu, Günəş Mərd, Aygün Tahir

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, İlahə İbrahimova, Nailə Cabbarlı, Fazilə Məmmədova

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h
AZ17AIIB38070019441100466111
Kod 200112 M/H
AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 2935



## Xınalığa su-kanalizasiya xətləri çəkiləcək

Lazımi vəsait ayrılandan sonra bu problem həll olunacaq

**Gələn il Quba rayonunun Xınalıq kəndinə su və kanalizasiya xətləri çəkiləcək.**

Bunu "Xınalıq" Dövlət Tarix-Memarlıq və Etnoqrafiya Qoruğunda aparılan təmir-bərpa işlərinə baxış zamanı Dövlət Turizm Agentliyinin sədri Fuad Nağıyev bildirib.

"Bununla bağlı "Azərsu" ASC ilə birgə müvafiq layihə hazırlanır. Layihə hökumətə təqdim ediləcək və lazımi vəsait ayrılandan sonra bu problem həll olunacaq", - deyə o, qeyd edib.

Qeyd edək ki, 2020-ci ildə "Xınalıq, orta əsr dağ kəndi" adı ilə UNESCO-nun Ümumdünya İrsinin İlkin Siyahısına daxil edilib.

Dünya əhəmiyyətli abidə kimi dövlət tərəfindən qorunan Xınalıq kəndinin ərazisində 2007-ci ildə "Xınalıq" Dövlət Tarix-Memarlıq və Etnoqrafiya Qoruğu yaradılıb. Dövlət Turizm Agentliyi tabeliyində fəaliyyət göstərən "Xınalıq" Dövlət Tarix-Memarlıq və Etnoqrafiya Qoruğu orta əsrlərə xas olan özünəməxsus memarlıq strukturu və əsrarəngiz təbiət mənzərəsi ilə seçilən bir mədəni irs nümunəsi kimi qəbul edilir.

## Avropalılar evlərini isitmək üçün qazdan oduna keçirlər



**Avropada evlərin qızdırılması üçün istifadə olunan odunun qiymətləri kəskin artıb.**

Azərtac xəbər verir ki, bu, elektrik enerjisi və qazın baha olması ilə bağlıdır. İndi əhali arasında fərdi evlərin qızdırılması üçün alternativ üsullara maraq artıb və bu sahədə artıq müəyyən ajiotaj və defisit müşahidə olunur. Adətən odun alqı-satqısı soyuq havalara yaxın başlayır, lakin bu il Rusiya qazının təchizatı ilə bağlı ciddi problemlərin olacağı bəlli olduqda sifarişlər iyun ayında başladı.

Qaz və elektrik enerjisi qiymətlərinin artması fonunda Avropa İttifaqı ölkələrində evlərində qaz isitmə sistemi quraşdırılan ailələr daha çox əziyyət çəkirlər.

Nasosları olan istilik sistemləri üçün lazım olan elektrik enerjisi də bahalaşır. Bir çoxları oduna keçməyə qərar veriblər, lakin burada da qiymətlər artmağa başlayıb. Avropalılar indi böyük həcmdə alış-veriş edirlər. Hazırda həyəcanlı sifarişlərinin ilk əlamətləri artıq nəzərə çarpır. İnsanlar tezliklə odunun çatmayacağına görə həyəcan keçirirlər. Macarıstan hətta ağac qranullarının ixracına qadağa qoyub. Hətta hiddət səsləri də eşidilir, çünki bir çox istehlakçılar hesab edirlər ki, hökumət onların etimadını doğrultmayıb. İnternet üzrə qiymətlərin sadə monitorinqi göstərir ki, ötən illə müqayisədə odunun qiymətləri ən azı 3 dəfə artıb.





# 539 il öncəki cinayət

Böyük Britaniya kralı sirri açmaq üçün hərəkətə keçdi




**Anası II Yelizavetanın ölümüylə, nəhayət, taxt-tacın "dadını" çıxarmağa başlayan Böyük Britaniya kralı Çarlz 539 il öncə törədilmiş cinayətin açılması üçün isitntaqa başlanmasına izin verib. Bu barədə "NTV.com.tr" məlumat verib. Qeyd edilir ki, kral Çarlz 539 il əvvəl qətlə yetirilmiş 2 şahzadəyə aid olduğu ehtimal edilən sümüklərin DNA testindən keçirilməsi fikrini dəstəkləyib.**

539 il əvvəl törədilmiş cinayət İngiltərə tarixinə "Qaladakı şahzadələr" adı ilə düşüb. Kral Çarlzın bu cinayətin araşdırılmasına izin verməsiylə böyük bir sirrin ortaya çıxacağı təxmin edilir. Halbuki, mərhum kraliça II Yelizaveta kral III Riçard və şahzadə V Edvarda aid olduğu ehtimal edilən qalıqların test edilməsinə izin verməmişdi. Kral Çarlz isə arxeologiya elminə xüsusi marağı ilə seçilir. Onun 539 il əvvəl baş vermiş cinayətin araşdırılmasına razılığı həm də bununla bağlıdır. Bu cinayət hadisəsi 1483-cü ildə Londonda baş verib. V Edvard atası İV Edvardın ölümündən sonra taxta çıxmağa hazırlaşarkən kiçik qardaşı ilə birlikdə London qalasında həbs edilir. Taxta isə əmiləri III Riçard sahiblənir. Edvard və kiçik qardaşınınsa məhz III Riçardın əmriylə qətlə yetirildiyi deyilir. Qalaya həbs edilən qardaşlar qeyri-qanuni varislər elan edildikdən sonra bir daha kimsə onları görməyib - əgər danışılanlar doğrudursa, təbii ki, onları qətlə yetirəndən savayı. Bu cinayət hətta Uilyam Şekspirin "III Riçard" əsərində də yer alıb. Və xalq arasında kral ailəsi haqqında müxtəlif rəvayətlərə rəvac verib. Şahzadə qardaşların birdən-birə ortadan yox olması əsrlərdir sirr olaraq qalmaqdadır. İngiltərə kral saraylarının ortaq baş kuratoru Tracy Borman II Yelizavetanın şahzadələrlə bağlı hər hansı araşdırma aparılmasına qarşı çıxdığını, lakin kral Çarlzın fərqli düşüncəyə sahib olduğunu deyib. T.Borman kral Çarlzın şahzadələrlə bağlı DNA testinin aparılması fikrini dəstəklədiyini və izin verdiyini bildirib. İngiltərə tarixçiləri bununla da nəhayət 539 il əvvəl baş vermiş cinayətin açılacağına ümid edirlər.

**Məlahət**

## Mask İranda peyk internetinin aktivləşdiyini təsdiqlədi



**İlon Mask İranda peyk internetinin aktivləşdiyini təsdiqləyib.**

**Oxu.az xəbər verir ki, bu barədə "Azad İran" "Telegram" kanalında məlumat verilib.**

**Bildirilib ki, İlon Mask İranda Starlink peyk internetin statistikasının olub-olmadığını soruşan "Twitter" istifadəçilərindən birinə İranda bir neçə cihazın aktivləşdirildiyi ilə bağlı açıqlama verib.**

## Gəlindən seçilməyən Ajda tənqid edildi



**Ajda Pekkan ötən günlərdə toy məclislərindən birində çıxış edib.**

**Olay xəbər verir ki, sənətçi fotoları instaqram hesabında paylaşaraq, cütlüyə xoşbəxtlik diləyib.**

**Diqqət çəkən məqam isə Ajdanın səhnə geyimi olub. Uzun, ağ rəng libası ilə müğənni gəlindən seçilməyib.**

**Sözügedən libas sosial şəbəkə izləyiciləri arasında müzakirə yaradıb.**

**Kimisi ifaçının tərzini bəyəndiyini qeyd etsə də, bir çoxları "toyda sadəcə gəlin bəyaz rəng geyinməlidir" deyərək Pekkanı geyiminə görə tənqid edib.**

## Məşhur cütlüyün övladı olacaq



**"Böyük partlayış nəzəriyyəsi" serialı ilə məşhurlaşan aktrisa Keyli Kuoko ana olmağa hazırlaşır.**

**Axşam.az xəbər verir ki, bu barədə aktrisa sosial şəbəkədə məlumat yayıb.**

**Övladının cinsiyyətini açıqlamayan aktrisa körpəsinin gələn il dünyaya gələcəyini bildirib.**

***Qeyd edək ki, Keyli 40 yaşlı aktyor Tom Pelfri ilə sevgilidir. Onlar bu ilin martında münasibətə başlayıblar.***




# Elə fırıldaq gəldi ki...

"Sevgilim, kosmosda ilişib qaldım, para lazım"



**Hər cür fırıldaqçılıq hekayələrini eşitmiş olarsınız, lakin əminik ki, əvvəllər belə bir hekayə duymamısız. Sosial mediada özünü olmadığı biri kimi göstərərək qarşı tərəfdən pul istəyən fırıldaqçılara yenisi əlavə edilib. Fırıldaqçı bu dəfə bir az çox "uçsa" da, yenə də onu yalanına inandıra bilib. Hətta o qədər uçub ki, sosial şəbəkədə danışdığı 65 yaşlı qadına rus kosmonavtı olduğunu deyib.**

"Şərq" xarici mediaya istinadən xəbər verir ki, fırıldaqçı qəribə planını iyul ayında həyata keçirməyə başlayıb və bu həftəyə qədər davam edib. Yaponiyanın Şiqa əyalətində yaşayan 65 yaşlı qadın sosial media profili kosmos şəkilləri ilə dolu olan kişi ilə tanış olub və danışmağa başlayıb. Fırıldaqçı yaşlı qadını hazırda Beynəlxalq Kosmik Stansiyada olan rus kosmonavtı olduğunu deyərək aldadıb.

Rusiyanın "Russia Today" xəbər saytının məlumatına görə, qadın "Line" mesajlaşma tətbiqi vasitəsilə həftələrlə fırıldaqçı ilə əlaqə saxlayıb. Onların əlaqələri olduqca standart, lakin "kosmik sous" şəklində davam edib və evlilik fırıldağına çevrilib. Dələduz qadına dəfələrlə onu sevdiyini deyib və onunla evlənəcəyinə söz verib, "Yaponiyada yeni həyata başlamaq" istədiyini təkid edib.

Hadisə ilə bağlı mətbuata açıqlama verən polis saxta kosmonavtın hər fürsətdə qurbanına romantik sözlər dediyini bildirib. O qədər ki, o, hətta bir çox qadını düşündürən romantik sualı verib:

"Yaponiyaya gələndə mənimlə evlənəcəksən? Mən səni sevirəm".

Qadını aldadaraq evlilik vəd edən fırıldaqçı qurbanına bildirib ki, o, hazırda kosmosda qapalı qalıb və Yerə qayıtmaq üçün raket xərclərini və böyük "eniş haqqı"nı ödəmək üçün pul lazımdır.

Qadın bu inanılmaz hekayəyə inanıb və fırıldaqçıya təxminən 4,4 milyon yen və ya 30,000 dollar köçürüb. Psevdokosmonavtın istədiyi məbləğ artıq astronomik olsa da, o yenə kosmos səyahəti səyləri üçün daha çox pul tələb etməyə davam edib. Qadın sonda şübhələnib və hadisə barədə polisə məlumat verib.

Yerli mətbuatın yazdığına görə, 65 yaşlı bu qadın kosmonavt yalanı ilə qadınları hədəfə alan fırıldaqçının yeganə qurbanı olmaya bilər. Fırıldaqçı 40 yaşlarında başqa bir yapon qadınla da danışıb. O, instaqramda özünü rus kosmonavtı kimi təqdim edən bir adamın onunla əlaqə saxladığını iddia edib. Mümkün fırıldaqçı potensial qurbanı eyni mesajlaşma proqramı olan "Line"ə yönləndirməyə çalışıb, lakin qadın bundan imtina edib və tezliklə saxta kosmonavtla əlaqəni kəsib.

Nəticədə, bu kosmos sousu sevgi fırıldaqları tarixə ən qəribə fırıldaq hekayələrindən biri kimi düşüb.

**Turan**

## "Tatlıses" ən gözəldi

Dilan atasının soyadından imtina etmədi



**Xəbər verdiyimiz kimi, İbrahim Tatlısesin müğənni qızı Dilan Çıtak Tatlıses uzun müddətdir sevgili olduğu Levent Dörterlə ailə qurub.**

Olay xəbər verir ki, məşhur müğənninin qızı evləndikdən sonra instaqram hesabındakı soyadını dəyişib. Belə ki, Dilan "Tatlıses"in yerinə "Dörter" soyadını əlavə edib.

Dilanın İbrahim Tatlısesin soyadını almaq üçün illərlə mübarizə aparmasından sonra atasının soyadından imtina etməsi izləyicilər arasında təəccüb doğrurub.

Müzakirələrdən sonra ifaçı instaqramda məlumat paylaşaraq vəsiqədə soyadının hələ də "Tatlıses" olduğunu qeyd edib:

"Səhnə adım hər zaman "Dilan Çıtak"dır. Vəsiqədəki adım isə bundan sonra Dilan Tatlıses Dörterdir. Soyadlarımı rahat buraxın, hamısı mənimdir".

## Həkim belə şok oldu

Gözündən 23 linza çıxarıldı



**ABŞ-da oftalmoloq xəstənin gözündən nə az, nə çox, düz 23 kontakt linza çıxarıb. Sosial şəbəkələrdə paylaşılan şok görüntülər qısa zamanda səs-küy yaradıb.**

"Şərq" xarici mediaya istinadən xəbər verir ki, kaliforniyalı həkim unutqan bir xəstənin gözündən 23 kontakt linzanı çıxardığı qəribə videonu paylaşıb. Oftalmoloq Dr. Katerina Kurteevanın bu videosu bir milyondan çox baxışla internetdə gündəm olub.

İnstaqram paylaşımına görə, xəstə 23 gün ərzində digərlərini çıxarmadan hər gün yeni kontakt linza taxıb. "Nadir haldır ki, kimsə gecələr kontakt linzalarını çıxarmağı "unudaraq" hər səhər yeni linzalar taxmağa davam edir", - həkim səhifəsində yazıb.

Dr. Kurteeva deyir ki, xəstə klinikaya ağrı və bulanıq görmə ilə daxil olduqdan sonra gördüklərinə inana bilməyib.

"Nə baş verdiyinə dair ehtimallar beynimdən keçdi: sınmış kontakt linza parçası, buynuz qişada cızıq, infeksiya, kirpik və ya makiyaj qalıqları.... Yalnız müayinədən keçəndən sonra əmin ola bildim. Xəstədən aşağı baxmasını istəyəndə bir neçə kontakt linzanın kənarlarının bir-birinə yapışdığını görə bildim. Linzaları çıxarıb köməkçimdən çıxarma prosesini qeyd etmək üçün telefonumu gətirməsini istəyəndə daha çox linzalar olduğunu hiss etdim. Hardasa ikinci bir göz bəbəyi kimi görünürdü. Mən linzaları bir-bir pambıq çubuqla yumşaq bir şəkildə götürməyə başladım, sanki kartlar kimi bir-bir axırdı. Göz qapaqlarından linzalar zəncir şəklində asılmışdı. Kontakt linzalar o qədər çox idi ki, bu mənim Ginnesin Rekordlar Kitabı anım ola biləcəyini düşündüm". Həkim sözlərinə əlavə edir: "Mən 20 ilə yaxın peşə həyatımda belə bir şey görməmişdim. Xəstə də buna inana bilmədi və saydığım rəqəmdən əmin olub-olmadığımı soruşdu".

Dr. Kurteeva sonda deyib ki, xəstəyə göz damcıları töküb evə buraxıb. O, özünü yaxşı hiss etdiyini söyləyib.

**Turan**